**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
**--------------------------------------------------------**
**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**==============================================**

*Əlyazması hüququnda*

**HƏSƏNOV ARZU NƏCƏF OĞLU**

# REGİONAL TURİZM KOMPLEKSLƏRİNİN İNKİŞAF STRATEGİYASININ FORMALAŞDIRILMASI

**5304.01-"İqtisadi fəaliyyət növləri"**

İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2016**

Dissertasiya işi Azərbaycan Texnologiya Universitetində "İaşə məhsullarının texnologiyası və turizm" kafedrasında yerinə yetirilib.

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Vahid Tapdıq oğlu Novruzov**

iqtisad elmləri doktoru, dosent
**Natiq Əli oğlu Cavadov**

iqtisad elmləri doktoru, dosent
**Anar Fazil oğlu Abbasov**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası**

Müdafiə 29 oktyabr 2016-cı il saat $12^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxana-sında tanış olmaq olar.

Avtoreferat 28 sentyabr 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **A.A.Həsənov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Müasir şəraitdə turizm sferası ölkənin sosial-iqtisadi inkişafının mühüm amili kimi çıxış edir. Belə ki, qeyri-neft sektorunun inkişaf strategiyasının reallaşmasında milli və regional turizmin rolu dinamik olaraq artır. Azərbaycan Respublikasının müasir inkişaf problemlərinin həll olunması, onun dünya iqtisadi birliyində səmərəli iştirakı və ölkənin mövcud resurs potensialından səmərəli istifadə edilməsi turizmin hərtərəfli inkişafını tələb edir. Bununla yanaşı, ölkədə sosial bazar iqtisadiyyatının formalaşması turizm sferasının müasir təzahür formalarının yaranmasını zəruri edir. Azərbaycanda digər sahələr kimi turizmin inkişafına da dövlət tərəfindən daim dəstək verilir. Bu baxımdan müəllif tərəfindən ölkədə turizm problemlərinin daha geniş formada tədqiq olunmasına böyük ehtiyac duyulur.

Azərbaycanda turizm sənayesinin formalaşması və inkişafını səciyyələndirən başlıca arqumentlərə aşağıdakıları aid etmək olar:

-Turizm fəaliyyəti ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafına təkan verən mühüm sahələrdən biridir;

-Postneft məkanında turizm iqtisadiyyatın şaxələndirilməsinin prioritet istiqamətlərindən biri kimi çıxış edir;

-Azərbaycanda turizmin inkişafı üçün cəlbedici təbii-coğrafi məkan, biomüxtəliflik, əlverişli landşaft, əlverişli iqtisadi şərait və digər amillər mövcuddur;

-Azərbaycan dünya iqtisadi birliyinə daxil olmaq və onların qabaqcıl turizm təcrübəsindən istifadə etmək imkanlarına malikdir;

-Dövlət tərəfindən turizmin inkişafına daha çox dəstək verilməsi və ölkəyə xarici turistlərin axınının stimullaşdırılması imkanları genişdir;

-Azərbaycanın bütün regionlarında turizmin müxtəlif forma və növlərinin inkişafı üçün əlverişli mühit mövcuddur;

-Azərbaycanda turizm bazarının formalaşması və onun üstünlüklərindən istifadə olunması;

-Regional sahibkarlığın inkişafında turizm fəaliyyətinin üstünlüklərindən istifadə olunması;

-Milli turizm bazarında rəqabət mühitinin genişləndirilməsi;

-Regionlarda turizm komplekslərinin tarazlı inkişafının stimullaşdırılması.

Tədqiqat prosesində yuxarıda göstərilən arqumentlər əsas götürülərək Azərbaycanda turizmin regional aspektlərinin hərtərəfli surətdə öyrənilməsinə xüsusi diqqət yetirilir.

Bu məqsədlə ölkədə turizm sferasının inkişafına dair bir sıra mühüm qanunlar, Dövlət Proqramları qəbul olunmuş və sərəncamlar verilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda turizm fəaliyyəti 4 iyun 1999-cu ildə ölkə prezidenti, ümummilli lider H.Ə.Əliyev tərəfindən "Turizm" haqqında qanun təsdiq edildikdən sonra daha da genişlənmişdir. Həmin qanunda ölkədə

turizm fəaliyyətinin dövlət tənzimlənməsinin prinsipləri, turizm sahəsində lisenziyalaşdırma, sertifikatlaşdırma və standartlaşdırmada dövlətin rolu, turistlərin hüquq və vəzifələri və turizmdə təhlükəsizlik məsələləri öz əksini tapmışdır. “Turizm” haqqında qanunun tələb və prinsiplərinə uyğun olaraq Nazirlər Kabineti yanında xarici turizm şurası və digər departamentlər formalaşdırılmışdır. Azərbaycanda ardıcıl olaraq turzimin hərtəfəli inkişafına dair Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 27 avqust 2002-ci ildə, 2002-2005-ci illərdə, 6 aprel 2010-cu ildə və 2010-2014-cü illərdə ölkədə turizm sənayesinin inkişafına dair Dövlət Proqramları qəbul olunmuşdur. Son dövrlər ölkə prezidenti İ.H.Əliyev cənabları tərəfindən regionların sosial-iqtisadi inkişafına, turizm sahəsində fəaliyyətin daha da genişləndirilməsinə və mövcud problemlərin vaxtında həll olunmasına xüsusi diqqət yetirilir. Belə ki, 01 sentyabr 2016-cı ildə ölkə prezidenti İ.H.Əliyev cənabları tərəfindən “Azərbaycan Respublikasında Turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam verilmişdir. Sərəncamda bir daha vurğulanır ki, qeyri neft sektorunun sürətli inkişafına nail olmaq üçün turizm fəaliyyətinin genişləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Ötən dövr ərzində qeyri neft sektorunun prioritet sahəsi kimi turizm sənayesində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində turizm sahəsində fəaliyyətə münbit şərait yaradılmış və milli turizm komplekslərinin rəqabətə davamlılığı yüksəldilmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli 1897 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji “yol xəritəsi”nin başılıca istiqamətlərindən biri kimi ixtisaslaşmış turizm və əyləncə fəaliyyəti müəyyən edilmiş və bu sahədə dünya təcrübəsindən istifadə modelləri göstərilmişdir. Göstərilən strateji istiqamətlər Azərbaycanda mövcud turzim potensialından istifadə imkanlarının genişləndirilməsini, regionlarda turizm fəaliyyətinin stimullaşdırılmasını, yeni turizm marşrutlarının yaradılmasını, həmçinin rəqabət qabiliyyətli qiymət təklifinin təmin edilməsini zəruri edir. Ölkədə turizmin səmərəli təşkili, idarə olunması və koordinasiyası məqsədilə ölkə prezidentinin 01 sentyabr 2016-cı il tarixli sərəncamı əsasında Azərbaycan Respublikasında Turizm Şurasının yaradılması haqqında qərar qəbul olunmuşdur.

Azərbaycanda milli və regional turizm sənayesinin hərtərəfli inkişafına dair qəbul edilmiş qanunlar, dövlət proqramları və sərəncamlar bir daha dissertasiya işinin aktuallığını sübuta yetirir.

Dissertasiya işinin aktuallığını səciyyələndirən digər arqumentlərdən biri də ölkə ərazisində geniş yaylımış
turizm ehtiyatları potensialından Azərbaycanda regional turizm sənayesində daha geniş və səmərəli istifadə imkanlarının olmasıdır. Mütəxəssislərin hesablamalarına görə, dünyada istehsal edilən ümumi məhsulun 9%-i, hər 11 iş yerindən biri, investisiyaların 12%-i, dünya məhsul və xidmət ixracatının 7%-i (1,4 trln dollar), ümumi xidmət ixracının 30%-i, vergi daxilolmalarının 10,7%-i turizm

fəaliyyəti nəticəsində yaranır. Ümumdünya Turizm Təşkilatının (ÜTT) mətbuata 06 may 2016-cı il tarixli 16033 saylı açıqlamasına əsasən 2015-ci ildə dünyada turist axınlarında 1,184 milyon nəfərdən çox turist iştirak edib. Bu göstərici 2014-cü illə müqayisədə 50 milyon nəfər çoxdur və illik artım 4,4% olmuşdur. 2015-ci ildə turizm sənayesində əldə edilmiş gəlir 2014-cü ilə nisbətən 3,6% artaraq 1,232 trilyon dollar təşkil etmişdir. Ümumdünya Ticarət Təşkilatının məlumatında qeyd edilir ki, turizm məhsullarının dünya ticarətində payı 2,8%-ə çatmışdır.

Regionlarda turizm komplekslərinin formalaşması və idarə olunması sahəsində bir sıra ciddi problemlər mövcuddur. Bu baxımdan onların tədricən həll olunması məqsədilə geniş formada tədqiqatın aparılması dissertasiya işinin aktuallığını bir daha təsdiq edir. Ölkədə turizm sferasında mövcud olan inhisarçılıq meyllərinin dövlət tərəfindən tənzimlənməsi, sərbəst və əlverişli qiymət rəqabətinin yaradılması mövcud problemlərin həll olunmasına və turizm obyektlərinə turist axınlarının stimullaşdırılmasına təsir göstərəcəkdir. Regional turizm komplekslərinə dair geniş tədqiqat işinin aparılması ölkədə turizmin balanslaşdırılmış inkişafına, iqtisadiyyatda tarazlıq vəziyyətinin formalaşmasına, sosial-iqtisadi, ekoloji, miqrasiya, immiqrasiya və s. problemlərin həll olunmasına səbəb olacaqdır.

Dissertasiyada tədqiqatın aktuallığını səciyyələndirən digər amillərdən biri də ərazi və sahələr üzrə turizm fəaliyyətinin qarşılıqlı surətdə əlaqələndirilməsinə xüsusi diqqət yetirilməsi və yerli turizm ehtiyatlarından daha səmərəli istifadə olunmasına nail olunmasıdır.

**Problemin öyrənilmə səviyyəsi:** Müasir dövrdə Azərbaycanda turizmin bu və ya digər istiqamətləri ölkənin tanınmış iqtisadçı-alimləri tərəfindən müəyyən səviyyədə tədqiq olunmuş və öyrənilmişdir. Onlardan Z.Ə.Səmədzadəni, M.M.Allahverdiyevi, R.M.Qasımovu, H.Rəcəblini, T.G.Həsənovu, A.H.Salmanovu, H.B.Soltanovanı, C.A.Məmmədovu, S.T.Yeqanlını, E.M.Hacıyevi, Ə.C.Əyyubovu, S.H.Rəhimovu, V.S.Dərgahovu, Ə.X.Nuriyevi, Ə.Q.Əlirzayevi, V.T.Novruzovu, A.F.Abbasovu, N.Ə.Cavadovu, T.İ.İmanovu, Q.Ə.Abbasovu, A.M.Məhərrəmovu, B.Ə.Bilalovu, F.M.Hüseynovu və b. qeyd etmək olar.

Xarici ölkələrin alimlərindən İ.Mısırlı, N.İçöz, N.Kozak, O.İçöz, M.B.Birjakov, İ.T.Balabanov, İ.V.Buxtoyarova, V.Q.Qulyayev, L.F.Qosteva, N.İ.Qaranin, Q.M..Dolmatov, A.P.Duroviç, Y.A.Cancuqazova, İ.P.Danilenko, E.B.Maslova, V.L.Poqodina, A.V.Yemelyanov, V.A.Kvartalnov, N.İ.Kabuşkin, M.A.Morozov, V.S.Senin, İ.V.Zorin, A.D.Kaurova, V.Althof, C.P.Uoker, F.Kotler, E.S.Denver, H.Morqan, J.Jenkins, X.Herqşgen, İ.Yendjeyçik, Y.Kaçmarek, B.Bramvell, P.Jonson, T.Barry və başqalarının elmi-nəzəri araşdırmalarını, regional turizmin təşkili, inkişafı və idarə edilməsi məsələlərini dəyərli tədqiqatlar hesab etmək olar.

Regional turizm kompelkslərinin inkişafı, planlaşdırılması və idarə olunması metodologiyasının işlənib hazırlanması sahəsində V.N.Yedronova,

Q.M.Romanova, L.Y.Majar, N.N.Lısenko, A.S.Makekadırova və başqalarının elmi işləri qeyd edilməlidir.

F.Kotler, C.Meykenz, V.V.Spitsın, A.S.Kopanev və başqaları regional turizm mərkəzlərinin inkişaf problemlərini və turizmdə marketinq nəzəriyyəsinə əsasən nəzərdən keçirirlər. Onların rəyinə görə regional marketinq tədqiqatlarının həyata keçirilməsi, turizm mərkəzlərinin inkişaf strategiyasının reallaşdırılmasında mühüm rol oynayır.

Lakin göstərilən alimlərin tədqiqatlarını müsbət qiymətləndirməklə yanaşı, onlarda nəzərə çarpan bir çox çatışmayan problemləri də qeyd etmək olar. Onlara: regional turizm ehtiyatlarından və potensialından tam istifadə olunmamasını, turizmin təşkili və idarə olunmasında ləngidici problemləri, turizmin planlaşdırılmasında mövcud əngəlləri, ehtiyatların inventarlaşdırılması və qiymətləndirilməsində yeni üsullarından istifadə olunmamasını və s. aid etmək olar. Bununla yanaşı mövcud tədqiqatlarda yeni turizm mərkəzlərinin formalaşdırılmasına təsir edən amillər lazımi səviyyədə tədqiq edilməmişdir.

Yaxın perspektivdə regional turizm potensialından daha səmərəli istifadə olunması məqsədilə dövlət və yerli idarəetmə orqanları tərəfindən strateji əhəmiyyətli dövlət proqramları və konsepsiyalar işlənib hazırlanmalıdır. Həmin konsepsiyanın reallaşması milli və yerli turizm sənayesinin hərtərəfli inkişafına təkan verəcəkdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi respublikanın regionlarında turizm potensialından səmərəli istifadə olunmasına, turizmin və rekreasiya ehtiyatlarının sosial-iqtisadi inkişafda rolunun müəyyən edilməsinə və regionlarda turizmin müasir inkişaf modelinin işlənib hazırlanmasına yönəldilmişdir. Qarşıya qoyulan məqsədə nail olunması aşağıdakı vəzifələrin həllini tələb edir:

-turizmin meydana gəlməsi və inkişafına dair elmi-nəzəri aspektləri araşdırmaq;

-turizmin sosial sferanın mühüm tərkib hissəsi olmasını və onun iqtisadi inkişafda rolunu müəyyən etmək;

-turizmin inkişafında təbii, antropoloji cəhətləri, prinsip və qanunauyğunluqları tədqiq etmək;

-Azərbaycanda turizmin tarixi inkişaf mərhələlərini və ənənələrini araşdırmaq;

-dünya ölkələrində turizmin inkişaf modellərinin fərqli xüsusiyyətlərini göstərmək və qiymətləndirmək;

- turizm regionlarının formalaşmasının fərqləndirici xüsusiyyətlərini və inkişaf meyllərini müəyyən etmək;

-respublikada və iqtisadi rayonlarda turizmin müasir inkişaf səviyyəsini analtik və sintetik göstəricilər əsasında təhlil etmək;

-regionlarda turizm mərkəzlərinin inkişafını şərtləndirən siyasi, ekoloji, sosial-mədəni və s. amilləri müəyyən etmək;

-regional turizm komplekslərinin turizm bazarının və turizmdə marketinq işinin formalaşmasına təsirini araşdırmaq;

-regional turizm ehtiyatlarının turizm prosesində istifadə istiqamətlərini müəyyənləşdirmək üçün onları inventarlaşdırmaq, qiymətləndirmək və kataloqlarını tərtib etmək;

-müasir regional turizm komplekslərinin təşkilinə və idarə olunmasına təsir edən amillərin rolunu artırmaq və onlardan səmərəli istifadə etmək;

-regional turizm komplekslərində yeni turizm məhsullarının istehsalını, bazara çıxarılmasını və satışının stimullaşdırılmasını təmin etmək və s.

**Tədqiqatın obyekti**. Tədqiqatın obyektinə regional turizm –rekreasiya ehtiyatları və potensialı, regional turizm komplekslərinin fəaliyyəti daxildir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti regionalarda turizm komplekslərinin formalaşması və inkişafı prosesində yaranan sosial-iqtisadi və təşkilati-iqtisadi münasibətlərin aşkar olunması və onların reallaşma istiqamətlərinin müəyyən edilməsidir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** İşin nəzəri-metodiki bazası Azərbaycan və xarici ölkə tədqiqatçılarının elmi əsərləri, beynəlxalq təşkilatların (UNWTO, WTTC, IATA, WTO və s.) turizmə dair tədqiqatları, elmi-tədqiqat institutlarının araşdırmalarının nəticələri və sairdən ibarətdir. Tədqiqat işinin metodoloji əsasını regional turizm mərkəzlərinin strateji inkişaf konsepsiyasının formalaşdırılmasına sistemli və kompleks yanaşma təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, Azərbaycan Respublikası Dövlət Statistika və Gömrük Komitələrinin, Mədəniyyət və Turizm Nazirliyinin statistik məcmuələri, bülletenləri, hesabatları, Beynəlxalq turizm təşkilatlarının hesabatları və press-relizləri, Azərbaycan Dövlət Arxivinin materialları, müxtəlif turizm müəssisələrinin, yerli və beynəlxalq turizm təşkilatlarının hesabatları təşkil edir.

**Tədqiqat üsulları.** Tədqiqatın yerinə yetirilməsi prosesində ümumiləşdirmə, sistemli və kompleks yanaşma, qruplaşdırma və müqayisəli statistik təhlil üsullarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarərdir:

-turizmin meydana gəlməsinin genetik əsasları, onun inkişaf meylləri və sosial sferanın inkişafında rolu müəyyən edilmişdir;

-turizm və rekreasiya potensialından səmərəli istifadə olunmasına təsir edən yerli amillər müəyyənləşdirilmiş və ehtiyatlardan səmərəli istifadə istiqamətləri göstərilmişdir;

-regionlarda turizmin fəaliyyətinin iqtisadi və sosial səmərəliliyinin artmasına təsir edən mexanizmlər əsaslandırılmışdır;

-Azərbaycanda turizmin tarixi-inkişaf mərhələləri sistemləşdirilmiş və müasir təzahür formaları müəyyən edilmişdir;

-regionlarda turizmin inkişafının fərqləndirici xüsusiyyətləri aşkar olunmuş və onun gələcək inkişaf meylləri göstərilmişdir;

-iqtisadi rayonlarda mövcud turizm və kurort-rekreasiya ehtiyatlarından funksional təyinatına görə səmərli istifadə olunması yolları müəyyən edilmişdir;

-yeni regional turizm komplekslərinin təşkili və idarə olunmasına təsir edən amillər beş qrupa bölünərək təsnifləşdirilmiş və onların təşkilati-texnoloji prinsipləri göstərilmişdir;

-regionlarda turizm komplekslərinin sosial problemlərin həllində rolu və mövcud turizm potensialından səmərəli istifadə olunmasına dair bir sıra təklif və tövsiyyələr irəli sürülmüşdür;

-tədqiqat prosesində turizm ehtiyatlarının dörd qrup üzrə təsnifləşdirilməsinin yeni forması təklif edilmişdir;

- turizm ehtiyatlarının inventarlaşdırılması və kataloqlaşdırılması metodlarının təkmilləşdirilmməsinə dair bir sıra təkliflər işlənib hazırlanmışdır;

-turizm komplekslərinin planlaşdırılması və inkişafında vacib mərhələ olan ehtiyatların qiymətləndirilməsi metodikası təkmilləşdirilmiş, onların funksional istifadə imkanlarının mahiyyətcə qiymətləndirilməsinin yeni üsulla yəni 20 ballıq sistem və 4 dərəcə üzrə aparılması metodu irəli sürülmüşdür. Eyni zamanda balların hesablanmasının riyazi düsturu tərtib edilmişdir;

-iqtisadi rayonlar üzrə turizmin əsas göstəriciləri təhlil edilərək regionlarda turizmin qeyri-bərabər inkişaf problemləri müəyyən edilmiş və onların təcrübi həlli yolları təklif edilmişdir;

-yeni turizm məhsulunun alınması məqsədilə qərarın qəbuluna təsir edən amillər müəyyən edilmiş, turist-turizm məhsulu münasibətlərinin əsas cəhətləri və onların bir-birinə qarşılıqlı təsiri mərhələlərinin sxemi tərtib edilmişdir;

-regional turizm fəaliyyətində mövcud olan inhisarçılıq meyllərinin qarşısının alınmasına dair səmərəli təkliflər verilmişdir;

-turizm mərkəzində yeni turizm məhsulunun istehsalı, bazara təklifi, satışının təşviqi və həyat dövrünün uzun müddətliyinin təmin olunması məsələlərinə təsir edən strateji tədbirlər sistemi müəyyən olunmuşdur;

-ölkə regionlarında turizmin müxtəlif forma və növlərinin inkişafı məqsədilə tövsiyələr verilmişdir;

-regionlarda turizm sahəsində sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədilə müxtəlif güzəştlərin tətbiq edilməsi təklif edilmişdir.

**İşin təcrübi əhəmiyyəti.** Tədqiqatın nəticəsi olaraq regionlarda turizm komplekslərinin təşkilinin nəzəri-təcrübi və metodiki prinsipləri sistemləşdirilmişdir. Təklif edilmiş yeni metod və tövsiyələrdən Azərbaycanda regional turizm mərkəzlərinin inkişaf strategiyasının işlənib hazırlanmasında istifadə

etmək olar. Dissertasiyanın nəticələrindən regionlarda turizmin dayanıqlı inkişafının təmin olunmasında, bu sahədə tədris-metodiki vəsaitlərin işlənib hazırlanmasında və tədris prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas müddəaları, irəli sürülən nəzəri və təcrübi təkliflər respublika və beynəlxalq elmi-təcrübi konfranslarda, o cümlədən "Yeyinti, toxuculuq və yüngül sənaye sahələrinin aktual problemləri" Respublika elmi-praktik konfranslarda (Gəncə-2007, 2008, 2009, 2010, 2011, 2012, 2013, 2014); "Turizm və rekreasiya: problemlər və perspektivlər". Birinci respublika elmi-praktik konfransda (Bakı-2007); "Turizm və rekreasiya: problemlər və perspektivlər". İkinci respublika elmi-praktik konfransda (Bakı-2008); "Regionların sosial-iqtisadi inkişafının nəzəri və təcrübi məsələləri". Elmi-təcrübi konfransda (Gəncə-2008); "Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri" Beynəlxalq elmi-təcrübi konfransda (Bakı-2009); Международна научно-практическа конференция посветена на 45-годишнината от създаването на Колеж по туризъм-Варна (ИМТ "Иван Вазов"). "Туризмът и устойчивото развитие на обществото", (Варна-2009); Научна конференция посветена на 45-годишнината от създаването на специалност "Туризъм". "Алтернативи за развитие на съвременния туризъм", (Варна-2010); Международная научная конференция. "Мировой экономический кризис и Грузия", (Тбилиси-2011); Юбилейна научна конференция с международно участие 20 години катедра "Икономика на туризма". "Предизвикателства пред туризма през XXI век". I том, (София-2011); Первая международная научно-практическая конференция. "Инновации. Менеджмент. Маркетинг. Туризм", (Сочи-2013); Международный научный Е-симпозиум. "Экономика и предпринимательства: теория и практика", (Москва-2014); XVIII международная научно-практическая конференция для студентов, аспирантов и молодых ученых."Определение вектора развития экономических наук в XXI веке: вызовы и решения", (Санкт Петербург-2014); VI International research and practice conference. "Scienc, Technology and Higher Education", (Canada, Westvud-2014); "Davamlı inkişafın milli modeli və strategiyası" Respublika elmi konfransda (Mingəçevir, 2015); "Kreativ sənaye texnologiyalarının tədrisi və tətbiqi" Beynəlxalq elmi konfransda (Gəncə, 2015) məruzə edilmiş, bəyənilmiş və dərc olunmuşdur.

Tədqiqatın nəticələri Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinə (AR MTN-nin 28.04.2015-ci il tarixli, 1111/05 saylı məktubu), Şəki RTİM-ə (Arayış № 09., 10.03.2015-ci il), Gəncə RTİM-ə (Arayış № 08., 11.03.2015-ci il) təqdim edilmiş və tətbiq edilməsi üçün qəbul olunmuşdur.

Dissertasiyada işlənib hazırlanmış nəzəri-metodiki ümumiləşdirmələr, nəticələr, əsas yanaşmalar və metodlar təklif və tövsiyələr Azərbaycan Turizm İnstitutu və Azərbaycan Texnologiya Universitetinin "Turizm və otelçilik" ixtisasında "Turizmin əsasları və asudə vaxt turizminin təşkili", "Beynəlxalq

turizmin coğrafiyası", "Turizm biznesinin təşkili", "Səyahət agentlikləri və turoperatorluq" və s. fənlərin tədrisində, buraxılış və kurs işlərinin yerinə yetirilməsində istifadə edilir.

**Dərc olunmuş məqalələr**. Dissertasiya üzərində iş aparılarkən əsaslandırılmış əsas müddəalar və gəlinən nəticələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda, elmi məqalələr toplularında, elmi-təcrübi konfransların materiallarında və xarici ölkələrdə dərc olunmuşdur.

**Tədqiqatın işinin quruluşu və həcmi.** Dissertasiya işi giriş, 5 fəsil və nəticədən ibarət olmaqla 292 səhifədən ibarətdir. İşdə 10 cədvəl, 14 şəkil verilmişdir. Dissertasiya işinin yazılmasında 245 adda ədəbiyyatdan istifadə olunmuşdur.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır və öyrənilmə səviyyəsi qiymətləndirilir, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası, tədqiqat üsulları, elmi yeniliyi, nəticələrin aprobasiyası və tətbiqinin praktiki əhəmiyyəti barədə məlumat verilir.

**"Turizmin təşkili və inkişaf etdirilməsinin nəzəri-metodoloji əsaslari"** adlı birinci fəsildə regional turizmin tədqiq olunmasının metodoloji əsasları, onun spesifik metodları, turizm regionlarının və turizm-rekreasiya komplekslərinin formalaşmasının ərazi prinsipləri, turizm və rekreasiya ehtiyatlarından turizmdə səmərəli istifadə olunması istiqamətləri nəzərdən keçirilir.

Qeyd etmək lazımdır ki, digər sahələr kimi, turizmin də bir elm olaraq öz xüsusi predmeti, obyekti, qanunauyğunluqları, prinsipləri, kateqoriyaları və tədqiqat metodları vardır. Ona görə də turizm sahəsində tədqiqat aparan mütəxəssislər üçün turizmin tədqiqinin metodoloji əsaslarını bilmək olduqca vacibdir. Turizm elmində nəzəriyyə və praktiki nəticələr əksər hallarda bir-biri ilə vəhdət təşkil etmir. Bu baxımdan turizmin bir elm kimi nəzəri və praktiki aspektlərinə elmi-nəzəri yanaşma hərtərəfli araşdırılmalıdır.

Turizmin xüsusi metodoloji prinsiplər əsasında tədqiq olunması, bu prosesə kompleks yanaşılması, eyni zamanda onun ümumi qanunauyğunluqlarının aşkar olunması xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə regional turizm komplekslərinin yaradılmasında, turizmin müasir idarəetmə mexanizmlərindən daha səmərəli istifadə olunmalı və turizm bazarının fəaliyyətində turizm-turist münasibətlərinin, həmçinin turizm ehtiyatları, kurort-rekreasiya, istirahət, əyləncə, yerləşmə, qidalanma, daşıma və s. məsələlərin tədqiq olunmasına xüsusi diqqət yetirilməlidir. Turizm fəaliyyətinin geniş formada tədqiq olunması onun mahiyyətinin daha geniş formada müəyyən edilməsinə daha çox imkan verir. Bu məqsədlə dövlət turizm siyasətinin hərtərəfli reallaşdırılmasına xüsusi diqqət yetirir və bununla bağlı bir sıra dövlət proqramları və konsepsiyalar irəli sürür.

Elmi ədəbiyyatlarda turizm bir elm, xidmət və fəaliyyət sahəsi kimi tədqiq olunur və bu sferada yaranan sosial-iqtisadi və təşkilati-iqtisadi münasibətlər müəyyən edilir. Turizm özlüyündə sosial sferanın mühüm tərkib hissəsi kimi iqtisadi və sosial səmərəliliyin artmasında mühüm rola malikdir və onun özünəməxsus parametrləri, vəzifələri və funksiyaları vardır. Bu baxımdan turizmin sosial funksiyalarının öyrənilməsinə daha çox diqqət yetirilir. Bunları nəzərə alaraq postsovet dövründə qeyri-neft sektorunun inkişafının mühüm sahəsi kimi Azərbaycanda milli turizm sənayesinin inkişafına dair ölkənin bir sıra tanınmış iqtisadçı-alimləri tərəfindən əsaslı tədqiqatlar aparılmış və səmərəli təkliflər irəli sürülmüşdür. Onlardan: Z.Səmədzadəni, H.Rəcəblini, Ə.Əlirzayevi, C.Məmmədovu, H.Sultanovanı, Q.Abbasovu, A.Məhərrəmmovu və digərlərini göstərmək olar. Azərbaycanın görkəmli iqtisadçı-alimi akademik Z.Səmədzadə öz tədqiqatlarında və çıxışlarında iqtisadiyyatın şaxələndirilməsinin prioritet istiqamətlərindən biri kimi milli turizm sənayesinin inkişafına və onun regional istiqamətlərinin daha da genişləndirilməsinə xüsusi diqqət yetirmişdir.

Akademik Z.Ə.Səmədzadə tərəfindən bir daha vurğulanır ki, ölkə prezidenti turizmin inkişafına mütəmadi olaraq dəstək verir və həmin sahənin inkişafına vəsait ayrılır. Azərbaycan tezliklə turizm məkanına çevriləcək, xarici turistlərin ölkəyə maraqlarının artması ölkəyə daha çox gəlir gətirəcək və son nəticədə əhalinin həyat səviyyəsinin yüksəldilməsində onun rolu artacaqdır.

Yazılı ədəbiyyatda “səyyah” ifadəsinin yerinə işlədilmiş “turist” anlayışına ilk dəfə 1800-ci ildə L.Peycin “İngilis dilinin lətifələri” əsərində rast gəlinir. Təxminən həmin dövrdə Fransada nəşr olunmuş fransız dili lüğətində “turist” ifadəsi “vaxt öldürmək və ya maraq üçün yerdəyişmə edən şəxs” kimi izah edilmişdir. 1838-ci ildə “Turistin xatirələri” kitabını nəşr etdirən Stendal “turist” sözünü leksikona ilk dəfə daxil edən şəxs olmuşdur. “Turizm” sözü latın mənşəli “tornus” (dairəvi hərəkət, fırlanmaq) sözündən yaranıb. Fransız mənşəli “tour” sözünün mənası isə çıxış yerinə qayıtmaqla səyahət etmək mənasını verir. Deməli, turizmi xarakterizə edən əsas əlamətlərə daimi yaşayış yerini mütləq tərk etmək, turizm tələbatlarının ödənilməsi məqsədilə müxtəlif turizm məntəqələrinə yerdəyişmə etmək və orada müvəqqəti olmaq, yerləşmə, qidalanma və s. xidmətlər istehlak etməklə qısa müddət yaşamaq, müəyyən müddətdən sonra daimi yaşayış yerinə qayıtmaq, səfər müddətində daimi yaşamağı və qazanc əldə etməyi nəzərdə tutmamaq aiddir.

İnsanın fiziki və zehni iş nəticəsində itirdiyi enerjini bərpa etmək, öz fərdi fiziki, psixoloji və intellektual ehtiyatlarının istehsalını yenidən təmini məqsədilə dincəlməsi, istirahət etməsi rekreasiya adlanır. Müasir həyat şərtlərinin gərginləşməsi, atmosferin həddən artıq çirklənməsi, müxtəlif xəstəliklərin çoxalması, ekoloji gərginliyin artması və s. problemlər insanların rekreasiya və istirahətə olan tələbatlarını xeyli artırmışdır. Bu tələbatlar müasir turizmin formalaşmasını şərtləndirmişdir.

Azərbaycan və onun regionlarında turizmin inkişaf istiqamətlərinin müəyyən edilməsində ölkədə turizmin tarixi, inkişaf istiqamətləri və ənənələri nəzərə alınmalıdır. Bu, tarixən formalaşmış ənənəvi turizm növlərinin daha sürətli inkişafına nail olmağa imkan verir. Tarixi faktlar sübut edir ki, qədimdən Azərbaycan ərazisində ticarət, dini, siyasi və dərketmə xarakterli intensiv yerdəyişmələr olmuşdur. Ölkənin şərq-qərb və şimal-cənub ticarət yolları üstündə yerləşməsi, Böyük İpək Yolunun (BİY) əsas marşrutlarının Azərbaycan ərazisindən keçməsi onun tranzit turizm məntəqəsi kimi əhəmiyyətini göstərir.

Azərbaycana səfər etmiş səyyah, tacir və rəsmi şəxslər xalqımızın mədəni-tarixi, dini əlaqələrin inkişafında mühüm rolu, olkədə sənətkarlığın və ticarətin yüksək inkişaf səviyyəsi, dünya dövlətləri ilə geniş ticarət əlaqələri, tarixi abidələri, əsrarəngiz təbiəti, xalqımızın adət-ənənələri, qonaqpərvərliyi, məişəti, zəngin mədəni irsi və s. barədə məlumat vermişlər.

Şimal-cənub və qərb-şərq istiqamətlərdə hərəkətin intensivləşməsi ölkə ərazisinə, xüsusilə Bakıya qonaq axınının artırdı ki, bu da yüksək səviyyəli xidmət göstərən müəssisələrin yaranmasını, infrastrukturun sürətlə yenilənməsini şərtləndirdi. 1908-ci ildə Krım-Qafqaz klubunun Bakı bölməsi açıldı və bu Azərbaycanda təşkil olunmuş turizmin tarixi kimi qəbul edilə bilər. 1910-cü ildən turizm fəaliyyəti daha da fəallaşır, müxtəlif ekskursiya komissiyaları, büro, komitə və şəxsi turizm kontorları yaradılır.

Sovet hakimiyyəti qurulduqdan sonra "Proletar turizm cəmiyyəti", 1922-ci ildə fəaliyyətini bərpa edən Rusiya Turizm Cəmiyyəti, 1928-ci ildə yaradılan "Sovetskiy turist" turizmin təşkili və idarə edilməsini həyata keçirirdilər. 1927-ci ildə Azərbaycanda təxminən 450 ekskursiya gəzintisi keçirilmiş, uzaq bölgələrə (Rusiya, Ukrayna, Orta Asiya, Şimali Qafqaz) səyahət marşrutlarının sayı 26-ya çatmışdı. 1931-ci ildə ÜLKGİ MK Uşaq Kommunist Təşkilatının tövsiyyəsinə əsasən Bakıda gənc turistlərin Respublika stansiyası və onun Bakı bölməsi yaradıldı. 1938-1941-ci illərdə hərbi-idman istiqamətli könüllü alpinizm təşkilatları yaradılmış, Buzovna, Hacıkənd və Göygöl turbazalarında kütləvi turizm tədbirləri təşkil edilmişdir.

Böyük Vətən Müharibəsi illərində turizmin inkişafında durğunluq yaransa da qələbədən sonra turizm sahəsinə diqqət və maraq artmağa başlamışdır.

1970-1987-cı illərdə turizmin inkişafı uzun müddətli plana müvafiq həyata keçirilirdi. 1978-ci ildən Xarici Turizm İdarəsi tabeliyində olan "Azərbaycan", "Moskva", "İnturist" mehmanxanaları və "Karvansaray" turizm kompleksi əcnəbi turistlərə, Azərbaycana gələn nümayəndə heyətləri və xüsusi turist qruplarına xidmət göstərirdi. 1985-1986-cı illərdə Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində yaradılmış turizm müəssisələri xeyli fəallaşır. Nəticədə SSRİ dövründəAzərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə 1987-ci ildə nail olur. Həmin il ölkəmizə 50 min xarici, 250 min yerli turist gəlmiş,

ekskursiyalarda 2,5 mln nəfər iştirak etmiş, vətəndaşlarımızın 10 min nəfəri xarici ölkələrdə, 300 min nəfərə yaxını isə SSRİ ərazisində turist səfərlərində olmuşdur.

Azərbaycanda 1988-1989-cu illlərdə respublika turizm təşkilatları müxtəlif xarici turizm müəssisə və təşkilatları ilə mövcud əlaqələrin saxlanılması üçün səy göstərsələr də, bütövlükdə regionda vəziyyətin qeyri-sabit olması turizmin inkişafına mənfi təsir göstərmişdir. Lakin müstəqillik qazandıqdan sonar ölkədə turizmin inkişafı məqsədilə ciddi islahatların aparılması, məqsədli dövlət turizm siyasətinin həyata keçirilməsi milli turizmin inkişaf tarixində yeni dövrün formalaşmasına zəmin yaradır.

**“Dünyada turizmin əsas inkişaf meylləri və onun xarakterik cəhətləri”** adlanan ikinci fəsildə turizmin inkişafının sosial-iqtisadi əsasları, dünya ölkələrində turizmin müasir inkişaf istiqamətləri və onların fərqləndirici xüsusiyyətləri, milli turizm sənayesinin inkişafını şərtləndirən amillər, turizm regionlarının formalaşdırılması prinsipləri tədqiq edilir.

Turizmin ümumi inkişafında beynəlxalq turizmin xüsusi rolu olsa da, onun ixracı qeyri-bərabər formada baş verir. Dünya ölkələrində turizm fəaliyyətinin xarakterik cəhətləri, gəlirlərin və xərclərin səviyyələri bir-birindən əsaslı surətdə fərqlənir. Bu isə hər bir ölkənin iqtisadi və sosial inkişaf səviyyəsindən daha çox asılıdır. Buna görə də müasir dövrdə Azərbaycan inkişaf etmiş ölkələrin qabaqcıl turizm təcrübəsindən daha çox bəhrələnməli və turizm fəaliyyətinin coğrafiyasını genişləndirməliidir.

Son zamanlar turizm sahəsində qloballaşma və transmilliləşmə prosesi gedir. Beynəlxalq turizmin regionlar üzrə inkişaf səviyyələrində fərqlərin aradan qaldırılması məqsədilə transmilli şirkətlər milli hökumətləri turizm infrastrukturunun inkişaf etdirilməsinə xüsusi diqqət yetirməyə maraqlandırırlar.

Hər bir ölkədə turizm sənayesi formalaşdırılarkən turizm fəaliyyəti üçün vacib olan amillərlə yanaşı beynəlxalq turizm bazarında mövcud inkişaf meyilləri, turist axınlarının istiqamətləri, turizm tələbatları və s. də nəzərə alınmalıdır. İnkişaf etmiş turizm ölkələrində turizm bazarının təhlili göstərir ki, hər bir ölkədə turizmin inkişafı yerli təbii, sosial-iqtisadi və s. amillərdən asılı olaraq spesifik formada inkişaf edir. Turizm sənayesi inkişaf etmiş ölkələrin (ABŞ, Almaniya. İspaniya, Misir və s.) təcrübəsinin öyrənilməsi göstərir ki, son dövrlər turizmin kosmik, sualtı, safari, ekzotik, dərketmə, mədəni, bərpa, konqres, festival, sərgi, iqtisadi, idman, etnik, hadisə və s. növləri üzrə daha çox artım müşahidə edilir.

Ona görə milli turizmin inkişaf etdirilməsinin prioritet istiqamətlərinin müəyyən edilməsi zamanı turizmin qeyd edilən növlərinin təşkilinə xüsusi diqqət verilməlidir. Turizmin bu növlərinin inkişafı milli turizm sənayesinin beynəlxalq turizm bazarında ixrac payının artmasına imkan verər.

Milli turizm sənayesinin vahid bir sistem halında təsəvvür edilməsi turizm mərkəzi, coğrafi komponent, turistlər, turizm infrastrukturu və s. kimi anlayışların istifadəsini şərtləndirir. Milli turizm sənayesinin formalaşması və inkişafı ölkədə

mövcud tarixi, mədəni, dini və mənəvi dəyər və normalarla, milli, dini, etnik və s. əngəllərin aradan qaldırılması ilə bilavasitə əlaqədardır. Sadalanan amillərdən başqa, insanın gücünü, əmək qabiliyyətini, intellektual səviyyəsinin təkrar istehsalını təmin edən rekreasiya potensialının xüsusi rolu qeyd edilməlidir. Bundan başqa mədəniyyət və dil, turizm tələb və təklifləri, ekologiya, vaxt, turizm sahəsi barədə biliklərin az olması, maliyyə vəsaitləri, ixtisaslı kadrlar, turizm texnologiyaları, turizmin xüsusi infrastrukturu ilə bağlı olan və hüquqi məhdudiyətlər aradan qaldırılmalıdır.

Avropa və Asiya mədəniyyətinin kəsişmə xəttində yerləşən Azərbaycan turizmin inkişafı üçün olduqca cəlbedici ölkədir. Ölkədə turizm müxtəlif forma və növlərinin təşkili və inkişafı üçün qeyri-adi təbii-iqlim şəraiti,dəniz sahili və subtropik zonası, yüksək dağlıq əraziləri, alp çəmənlikləri, zəngin hidrotermik ehtiyatları (250-dən artıq göl, 1200 çay), təbii çimərlikləri, günəşli günlərin (220 gün/il) çoxluğu, qışı quraq olan mülayim isti, yayı quraq olan mülayim isti və qışı quraq olan soyuq iqlim tipləri, müxtəlif təyinatlı sanatoriya-kurort zonalarının yaranmasında əhəmiyyəti böyük olan 150-yə qədər mineral və termal su qrupu, 300-dən çox müalicəvi palçıq vulkanı, Naftalan nefti, biomüxtəliflik, təkrarolunmaz dağ silsilələri və s. amillər mövcuddur. Bundan başqa turizmin təşkili və inkişafı üçün vacib olan siyasi, iqtisadi, sosial və ekoloji əlverişli mühit var. Ölkədə siyasi sabitlik və demokratik mühitin, iqtisadi və siyasi azadlığın, vətəndaşların təhlükəsizliyinin təmini, istirahət hüququnun təsbit edilməsi, iqtisadi fəaliyyət növləri, o cümlədən turizmdə sahibkarliq fəaliyyəti üçün əlverişli şəraitin və normativ-hüquqi bazanın yaradılması, sahibkarlara müxtəlif maliyyə güzəştlərinin tətbiqi, peşəkar kadr hazırlığı, turizm sahəsinə investisiyaların cəlb edilməsi, istehsal və idarəetmədə müasir texnologiyaların tətbiqi, ölkəyə giriş-çıxış prosedurlarının və viza rəsmiləşdiməsinin sadələşdirilməsi, dövlət turizm siyasətinin, turizmin dövlət tənzimlənməsi və idarəetmə strukturunun optimal modellərinin tətbiqi, turizmin dayanıqlı və dinamik inkişafı üçün məqsədli dövlət proqramlarının qəbulu, beynəlxalq turizm təşkilatlarına intensiv inteqrasiya və s. milli turizm sənayesinin formalaşması və inkişafını şərtləndirən amillərdir.

Respublikanın regionlarında turizm komplekslərinin səmərəli təşkili, fəaliyyət göstərməsi və dayanıqlı inkişafının təmin edilməsi üçün ölkə ərazisinin təbii turizm ehtiyatları təhlil edilərək kompleks meyarlar əsasında regionlaşdırma həyata keçirilməlidir. Prosesin əsas məqsədi kompleks turizm xidmətləri istehsal və təklif etməyə imkan verən təbii, sosial-iqtisadi, demoqrafik, ekoloji və s. amillərin ərazisini müəyyənləşdirməkdən ibarətdir. Regionlaşdırma bütöv bir ərazinin spesifik əlamətlər və təbii şərtlər üzrə məntiqi cəhətdən ayrı-ayrı hissələrə bölünməsini nəzərdə tutur. Turizm məqsədilə ərazinin bölünməsi prinsiplərindən biri kimi onun turist qəbulu və xidmət göstərilməsi üçün tələb olunan konkret təsərrüfat sisteminin vəziyyəti, turist axınlarının proqnozlaşdırılan həcmi

və regional turizm mərkəzlərinin imkanları, digər fəaliyyət sahələri ilə əlaqələri götürülməlidir.

Regionlaşdırma zamanı ölkənin ümumi inzibati-ərazi sərhədləri dəyişməməli, mövcud turizm potensialının xüsusiyyətləri və real istifadə istiqamətləri, bir əlamət, bir çox əlamətlər kompleksi və ərazinin bütün əlamətləri, coğrafi amillər, milli və beynəlxalq turizmin inkişaf meylləri, turizm bazarının konyukturu, turizm xidmətləri üzrə ixtisaslaşma, turizm tələbatları, turist axınlarının istiqamətləri, mövcud maddi-texniki baza və infrastruktur elementlərinin müştərək istismar imkanları, tələbatlar-təkliflər balansı və s. nəzərə alınmalıdır. Deməli təklif etdiyimiz prinsiplər konkret çərçivəyə salınmır və şərtlərdən asılı olaraq transformasiya edilə, təkmilləşdirilə və genişləndirilə bilər. Həmçinin müxtəlif prinsiplərin bir-birilə uyğunlaşdırılması və kombinasiyası da mümkündür.

Turizm regionlarının formalaşmasında maddi-texniki bazanın səviyyəsi də mühüm amil hesab edilir. Turizmin maddi-texniki baza elementlərinə əsas və əlavə turizm xidmətləri kompleksinin formalaşmasını təmin edən istehsal və ixtisaslaşmış turizm müəssisələri, obyektlərin fəaliyyəti üzrə iş və xidmətlər daxildir. Xidmətlər kompleksi turizm fəaliyyətinin əsas nəticələri kimi təzahür edir və regionun digər potensialının ümumi inkişafa cəlb edilməsini şərtləndirir.

Region yaratma amilləri sırasına təbii, antropogen, təbii-antropogen, turizm infrastrukturu və rekreasiya ehtiyatları, tarixi-memarlıq ansamblları, təbii abidələr və s. də aiddir. Azərbaycanda turizm marağı yarada bilən bu tip obyektlər kifayət qədərdir və onlar turizm regionunun formalaşmasına imkan verir. Həmin obyekt və ehtiyatların yerlşmə cöğrafiyası müəyyən edilərək, turizm motivi yaradan hər hansı obyekt, yaşayış məntəqəsi, inzibati rayon, bir neçə inzibati rayonun daxil olduğu ərazi və s. turizm regionu kimi qəbul edilməlidir.

**"Azərbaycanın iqtisadi rayonlarında turizm potensialının qiymətləndirilməsi" adlı üçüncü fəsildə** iqtisadi rayonlarda mövcud olan təbii ehtiyatlar nəzərdən keçirilir və xarakterizə edilir. Ehtiyatların turizmin müxtəlif növlərində istifadə məqsədilə rayonlaşdırılması prinsipləri, iqtisadi rayonların turizm potensialının səviyyəsi, turizm ehtiyatları və onların turizm məhsulu istehsalına cəlb edilməsi imkanları araşdırılır.

**Abşeron** iqtisadi rayonunun turizm və kurort-rekreasiya potensialı ölkədə turizmin inkişafına təkan verən böyük amildir. Onun potensial kompleksinə günəşli günlərin sayı, iqlim şəraiti, dəniz, relyef, tamamilə yenidən qurulan infrastruktur və digər amillər daxildir. Rayonun ərazisi əsasən quru subtropik iqlimə malikdir və illik orta temperatur 14-15 ºC təşkil edir. Yağıntı 100-250 mm-ə qədər düşür, yayı isə quru keçir. Rayon üçün gilavar və xəzri küləkləri xarakterikdir. Cənubi Qafqazda olan və öz ekzotikliyi ilə seçilən 400 palçıq vulkanından 344-ü Abşeron ərazisindədir və onların 23-nə təbiət abidəsi statusu

verilib. Zəngin termal və mineral su ehtiyatları əsasında Buzovna, Bilgəh, Mərdəkan qəsəbələrində sanatoriya kompleksləri yaradılmışdır.

Abşeronda rekreasiya imkanları, turizm marağı yaradan zəngin arxitektur və tarixi abidələr, muzey və görməli yerlər, müdafiə və sığınacaq qüllələri, qayalıq adada tikilmiş qəsr, qeyri-adi açıq muzey hesab edilən İçəri Şəhər, Şirvanşahlar sarayı, dini mərkəzlər mövcuddur. Xəzər sahili zonada qumlu çimərliklər yerləşir və turizm mərkəzləri, müxtəlif müalicə-sağlamlıq müəssisələri fəaliyyət göstərir. Qobustan, unikal turizm ərazisidir və burada yaşı 10 min ildən çox olan qayaüstü rəsmlər var. Regionda turizmin maddi-texniki bazası və infrastrukturu ölkənin digər regionlarından daha üstün səviyyədədir. Bu Abşeronun nəqliyyat qovşagında, tranzit turizm marşrutları üstündə yerləşməsinin nəticəsidir. Azərbaycanda turizm şirkətlərinin 95%-i Bakı və Abşeronda fəaliyyət göstərir. Bütün sadalananlar bu regionda turizmin hərtərəfli potensiala və perspektiv inkişaf imkanlarına sahib olduğunu göstərir.

**Quba-Xaçmaz** bölgəsi zəngin turizm ehtiyatı olan ərazidir. Regionun dağlıq ərazilərində illik orta temperatur 5-7 ºC, illik yağıntı 500-800 mm olduğu halda, Samur-Şabran ovalağında 12-13 ºC, illik yağıntı 300-400 mm olur. 2000 m-dən hündürlükdə olan subalp və alp çəmənlərinin iqlimi soyuqdur və qış-yay turizm-rekreasiya mərkəzlərinin təşkili üçün əlverişlidir. Regionun mineral suları (Xaltan, Xaşi, Cimi) öz fiziki-kimyəvi xüsusiyyətlərinə görə rəngarəng, turizmdə istifadə üçün yararlı xarakterlidir. Region tarixi-memarlıq abidələri ilə zəngindir. Ərazidə qədim müdafiə qurğuları, qədim qalalar, şəhər xarabalıqlarının qalıqları, maraqlı turizm ehtiyatları yayılmışdır. Xaçmaz ərazisində dövrümüzə gəlib çatan 60-dan çox tarixi əhəmiyyətə malik kurqanlara, qalalara, dini abidələrə rast gəlinir. Regionun bölgələrində "Şahdağ" qış-yay turizm kompleksi, Qəçrəş turizm mərkəzi, "Qalaaltı" pansionatı, qonaq evləri və mehmanxana fəaliyyət göstərir. Quba bütün dünyada sənətkarlıq mərkəzi kimi də məşhurdur və nəfis xalçaları ilə şöhrət qazanmışdır. Hal-hazırda Nabranın, Yalama-Xudatın dəniz sahili ərazilərində böyük turizm bazaları, müxtəlif təşkilatlara məxsus sağlamlıq müəssisələri yerləşir. Qusar rayonu ərazisində ekoloji turizmin təşkili üçün marşrutlar tərtib edilə bilər. Alpinizm həvəskarları üçün Şahdağ və Yarıdağ maraqlı hesab edilir və burada dağ-turizm bazası və müalicəvi palçıqlı sanotoriya fəaliyyət göstərir. Regionda olan ehtiyatlar gələcəkdə Yalama-Xudat dənizsahili ərazisində Azərbaycan rivyerasının yaradılmasını proqnozlaşdırmaq, subregionun infrastrukturunu təkmilləşdirməklə beynəlxalq turizm mərkəzinə çevirmək olar.

**Səki-Zaqatala və Dağlıq Şirvan regionları** Böyük Qafqazın cənub və cənub-şərq ətəklərini əhatə edir. Təbii şərait, coğrafi mövqe, turizmin və kurort-rekreasiya işinin təşkili və inkişafına imkan verir. Bu regiondaki mineral sularının böyük müalicə əhəmiyyəti var. Zaqatala təbii kurort bölgəsi kimi çox əlverişli ərazini əhatə edir. Regionun turizmin inkişaf səviyyəsinə görə lider rayonu Qəbələdir. Bu rayonda yaradılmış turizm kompleksləri ən son texnoloji tələblərə,

dünya standartlarına müvafiq olmaqla, yüksək tutum və buraxılıcılıq qabiliyyətinə malikdir. Yerləşmə, qidalanma, əyləncə, istirahət, bir sözlə, kompleks turizm tələbatlarının təmin edilməsinə imkan verən mərkəz, milli turizm sənayesinin imicinin göstəricisi sayıla bilər. Balakənin təbii şəraiti turizm üçün ideal əlverişli kimi qiymətləndirilə bilər. Rayonda maraqli, qeyri-adi, analoqu olmayan obyektlərə rast gəlinir və ərazidə müxtəlif etnik qrupların yaşaması mədəni-məişət və adət-ənənələrin rəngarəngliyini və zənginliyini yaradır. Rayon ərazisində etnik, ekoloji, dərketmə, mədəni, əyləncə, istirahət və başqa turizm növünün inkişafı planlaşdırıla bilər. Şamaxıda müalicə əhəmiyyətli mağara, Cəngi meşəliyi, tarixi və memarlıq abidələri, dini ziyarətgah və pirlər, qarışıq meşə massivləri, rəngarəng landşaft, mineral ehtiyatlar, müasir qurğu və tikililər, rəsədxana və b. turizm mərkəzlərinin inkişaf perspektivinə inam yaradır. Ağsu rayonunun şimal hissəsində dağ meşələri, şəlalə və mineral bulaqlar, müasir qurğular, ziyarətgahlar, qədim tikililərin qalıqları və s. turizmin inkişafını şərtləndirən təbii amillər ola bilər. İsmayıllıda zəngin təbiət, meşə örtüklü dağlar, şəlalələr, dünyaca məşhur turizm mərkəzi olan Lahıcda xüsusi sənətkarlıq nümunələrinin nümayişi turistlərdə xoş təəssürat yaradır. Rayonda müqəddəs ziyarətgahlar, süni yaradılmış göllər, qədim insan məskənləri, məbəd xarabalıqları, qala və gözətçi qüllələri və s. məlumdur. Şəki Xan sarayı dünya mədəniyyətinin nadir incilərindəndir. Bu regionun təbii-iqlim və turizm-rekreasiya amillərinin qiymətləndirilməsi gələcəkdə rekreasiya bölgəsi kimi inkişafını şərtləndirir. Regional məişət, mətbəx və s. spesifik xüsusiyyətlərə görə, xarici turistlərdə maraq oyadır.

**Gəncə-Qazax** regionunun təbii sərvət və ehtiyatları, turizmin və kurort-rekreasiya işinin inkişafına böyük imkanlar yaradır. Regionda illik yağıntının miqdarı 250 mm-dən 550 mm-dək, havanın orta illik temperaturu 6-13$^{0}$C arasında dəyişir. Regionun Gədəbəy və Daşkəsən rayonlarında təbii-iqlim şəraiti dünya əhəmiyyətli Abastumani kurortunun analoqudur. Hacıkənd, Göygöl, Naftalan turizm və kurort-rekreasiya komplekslərinin zəngin fəaliyyət tarixi var və iqlimi mülayim, havası təmizdir, zəngin mineral sularının və müalicəvi neftinin mövcudluğu burada kurort-rekreasiya təsərrüfatının inkişafına şərait yaratmışdır. Zəngin turizm ehtiyatları olan bölgələrdən biri də Gədəbəydir. Rayon ərazisində mineral sular, təbii abidələr, kiçik göllər, şəlalələr, mağaralar, yeraltı yollar, mədəni-tarixi abidələr, məbədlər, körpülər, Alban kilsələri, müqəddəs dini ziyarətgahlar, qayaüstü yazı və rəsmlər, Gədəbəy-Xocalı mədəniyyəti nümunələri olan tarixi abidələr, qalalar geniş yayılmışdır. Sadalanan turizm ehtiyatlarının geniş çeşidi rayon ərazisində turizmin müxtəlif növlərinin inkişafı üçün böyük imkanların olduğunu göstərir. Gəncə şəhəri öz memarlıq üslubu olan tarixi-memarlıq, dini, mədəni abidələri ilə fərqlənir. Qafqazın ən gözəl göllərindən Göy göl və 8 balaca göl burada yerləşir. Gəncə ölkəmizin mədəni mərkəzi kimi mədəni, dərketmə və dini turizmin təşkilinə və inkişafına imkan verir. Göygöl rayonunda memarlıq abidələrindən körpülər, qalalar, türbələr, məbəd, alman

tarixini və mədəniyyətini əks etdirən digər abidələr vardır. Azərbaycan turizmində xüsusi yeri olan Hacıkənd turizm mərkəzi xüsusi qeyd edilməlidir. Ağsu, Gəncəçay və Kürəkçay sahilləri turizm mərkəzlərinin təşkili üçün əlverişli ərazilərdir. Regionun qərbində, tranzit yollar üzərində yerləşən Qazax ərazisində çoxlu türbələr, qüllə, alban məbədi, qalalar, bir neçə qədim körpü, təbii abidələr var. Qazax həm də ölkənin sənətkarlıq mərkəzlərindən biridir. Təəssüf ki, müharibə səbəbindən rayonun dağlıq hissəsinin turizm potensialından yararlanmaq mümkün olmur və rayondakı turizm bazaları və istirahət evlərində qaçqınlar yaşayırlar. Goranboy rayonunun ərazisi də turizmin inkişafı üçün turizm ehtiyatları ilə zəngindir. Rayonun cənub hissəsi, xüsusilə Ağcakənd bölgəsi mühüm turizm mərkəzi hesab edilir və bu bölgədə istirahət turizmi inkişaf etdirilə bilər.

**Naxçıvan** turizm bölgəsi nadir mineral sularla zəngindir. Digər bölgələr olduğu kimi, bu regionda da turizmin inkişafı üçün zəngin təbii, coğrafi və iqlim şəraiti vardır. MR-in ərazisində çoxsaylı tarixi, mədəni, arxitektur və təbii abidələr, bitki növ müxtəlifliyinin 62,6%-i var. Ərazinin mineral və termal sularla zəngin olması geniş profilli kurort-sanatoriya komplekslərinin yaradılmasına imkan verir. MR ərazisi zəngin təbiəti və özünəməxsus relyefi ilə fərqlənir ki, bu da turizmin inkişafı üçün əlverişli resurslar hesab oluna bilər. Şahbuz və Ordubad rayonlarının, Culfa rayonunun bəzi dağlıq ərazilərinin təbii şəraiti və ehtiyatları turizmin və kurort-rekreasiya işinin inkişafı baxımından daha əlverişlidir. Batabat zonasının ekoloji cəhətdən sağlam və zəngin dağ-meşəli, çəmənli təbiəti müalicə və istirahət turizmi baxımından xüsusilə əlverişlidir. Geniş çeşidliliyi ilə seçilən tarixi muzeylər mədəni istirahətin təşkili baxımından əhəmiyyətli hesab edilir. Respublikamızın digər bölgələrində olduğu kimi Naxçıvan MR-da turizmin inkişafı üçün əlverişli şərait vardır.

**Lənkəran**dakı münbit təbii şərait, mineral və termal qaynaqlar, mənzərəli Talış dağları, enliyarpaqlı meşə massivləri, təbii və tarix-mədəni abidələri, təbiətin qeyri-adi gözəlliyi, subtropik iqlim, ekoloji təmiz mühit, Xəzər sahili çimərliklər, flora və faunanın zənginliyi, regionun turizm mərkəzi kimi inkişafına zəmin yaradır. Dağlarla əhatə olunmuş, təbiətin mənzərəli guşəsində yerləşən Xanbulançay gölü regionun turizm marağı yaradan ən maraqlı ərazilərdən biridir. Masallıdakı mineral mənbələr "İsti su" sanatoriyasındakı sularla eyni tərkibə malikdir. Rayonun Ərkivan kəndində yaradılmış süni göl turizm məqsədilə istifadə edilə bilər. Regionun ərazisində olan Qızılağac və Hirkan qoruqlarında adları Qırmızı Kitaba salınmış dəmirağac, şabalıdyarpaq palıd, akasiya, Hirkan şümşadı və s. kimi nadir ağac növləri qorunur. Unikal gözəlliyə malik olan Lerik və Yardımlı kimi yüksək dağ rayonları turistlər üçün ən uyğun səyahət-ekskursiya yerləridir. Astara bu regionun zəngin turizm ehtiyatlarına sahib olan rayonudur. Sovet İttifaqı dövründə Astara sərhəd şəhəri kimi qapalı olduğundan şəhərdə turizm müəssisələri demək olar ki, yox idi. Lakin müstəqilliyimiz bərpa

olunduqdan sonra hər şey dəyişib və turistlərə təbiətin bəxş etdiyi zəngin turizm ehtiyatlarından yararlanmaq imkanları yaradılıb.

**Aran** rayonunun ərazisini əsasən quru çöl və yarımsəhra iqlimi ilə seçilən Kür-Araz ovalığı təşkil edir. Ərazinin dəniz səviyyəsindən 28-400 m-dək hündür olması, özünü iqlim şəraitinin qeyri-sadəliyində göstərir. İqlimi əsasən zəif rütubətliliyi və yumşaq qışı ilə seçilir. Yay çox istidir, ilin isti dövrünün ayrı-ayrı günlərində temperatur bəzən 36-40 dərəcəyə çatır, hava qızmar və quru olur. Bu tip iqlim tərəvəz-bostan bitkilərinin, pambığın, üzümün, payızlıq dənli bitkilərin yetişdirilməsi üçün əlverişlidir və bu aqroturizmin təşkilinə imkan verir. Aran iqtisadi rayonu ərazisində müxtəlif növ mineral bulaqlar vardır. Kürdəmir rayonunda yer altından $90^0$C temperaturlu çıxan mineral su əsasında sanatoriya fəaliyyətdədir. Bundan əlavə, regionun digər bölgələrində də bu tip mineral palçıqlar mövcuddur. Bu göstəricilər regionun turizm və kurort-rekreasiya sahəsi üçün də əhəmiyyətli olmasını göstərir. Lakin hazırda Mingəçevir şəhəri istisna olmaqla, regionun digər bölgələrində demək olar ki, turizm təsərrüfatının inkişafı çox zəifdir. Aran iqtisadi rayonunda çay qıraqlarının abadlaşdırılması, Mingəçevir su anbarında üzgüçülüyün bərpası, Tuğay meşələrinin bərpası kifayət qədər turist cəlb edə ilər. Bu ərazilərdə tarixi abidələrdən Örənqala, qədim məscid və dini ziyarərgahlar, kurqanlar və s. vardır. Son illər Salyan rayonu ərazisindəki Babazənən sahəsində aşkarlanmış mineral sular əsasında palçıq müalicəsi həyata keçirilir. İqtisadi rayon üçün ən xarakterik əlamət il ərzində iki-üç dəfə məhsul almaq üçün geniş termik imkanların olmasıdır.

**Yuxari Qarabağ** regionu respublikanın mənzərəli və bənzərsiz bir guşəsində yerləşir. Subregion zəngin rekreasiya resurslarına, həmçinin bir çox mədəni-tarixi, arxitektur abidələrə malikdir. Sovet hakimiyyəti illərində Şuşa şəhərində böyük rekreasiya müəssisələri fəaliyyət göstərirdi. Şuşa şəhəri çox səfalı iqlimi, mənzərəli təbiəti ilə məşhurdur. Şuşa dahi Azərbaycan musiqiçilərinin vətənidir və onu "şərqin konservatoriyası" adlandırırlar. Burada tez-tez festival və gənc istedadlar üçün musiqi müsabiqələri keçirilirdi. Şuşa coğrafi mövqeyinə görə təbiətin möcüzəsi hesab edilir və açıq səma altında muzey hesab edilən bu şəhər hər zaman turistlər üçün cəlbedici məkan olub. Erməni terrorçuları tərəfindən işğal olunanadək Şuşa ölkənin ən yaxşı kurort mərkəzlərindən biri hesab edilirdi.

**Kəlbəcərdə** müalicəvi mineral suların bazasında salınmış "İsti su" sanatoriyası rekreasiya işinin təşkili və inkişafında xüsusi əhəmiyyət daşıyırdı və yay aylarında xeyli sayda turistin müalicə və istirahətini təmin edirdi. Dağlıq Qarabağda həzm sistemi xəstəliklərinin müalicəsi üçün karbonatlı mineral mənbələr mövcuddur. Xankəndi şəhəri kurort zonası hesab edilir. Əvvəllər subregion əsasən kurort-sağlamlaşdırma istiqamətində inkişaf etsə də gələcəkdə turizmin digər forma və növlərini də inkişaf etdirmək olar. Lakin məlum təcavüz Qarabağın turizm potensialının istehsal prosesinə cəlb edilməsini dayandırdı.

Erməni işğalına məruz qalmış bu regionda təbii, mədəni-tarixi, arxitektura abidələri, qoruqlar, muzeylər, təhsil, səhiyyə müəssisələri, mədəniyyət mərkəzləri dağıdılmış, tarixi-mədəni irs, regionun turizm infrastrukturu məhv edilmişdir. Lakin yaxın vaxtlarda Qarabağ münaqişəsinin həll ediləcəyinə, ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına və regionda turizmin inkişafına imkan yaradılacağına böyük ümidlərimiz var.

**"Azərbaycan respublikasında turizmin inkişafinın regional problemləri və onun həlli yolları" adlandırılmış dördüncü fəsildə** iqtisadi rayonlar üzrə turizmin inkişaf səviyyəsi təhlil edilərək qiymətləndirilir, turizm sənayesinin formalaşması və inkişafının mühüm sahəsi olan mehmanxana təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyətinin vəziyyəti təhlill edilir, turizm sahəsində sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri və əhəmiyyəti araşdırılır, infrastrukturun formalaşdırılması prinsipləri nəzərdən keçirilir.

Qeyd edilir ki, müəyyən problemlərin olmasına baxmayaraq,turizm sənayesinin əsas sahələrində sahibkarlıq fəaliyyəti ilbəil genişlənir və statistik məlumata görə turizm bazarında 2014-cü ildə 218 turizm firması, 535-dən çox yerləşmə müəssisəsi, 600-ə qədər istirahət-əyləncə mərkəzi, 57 sanatoriya, 6 pansionat və s. fəaliyyət göstərir. Ölkədə turizmin əhəmiyyəti artsa da regionlar üzrə onun inkişaf səviyyəsinin kəskin fərqlənməsi problemləri müəyyən edilməli və həlli üçün tədbirlər həyata keçirilməlidir. Tətbiq edilən stimullaşdırıcı tədbirlər bu sahədə sahibkarlıq fəaliyyətinin inkişafına şərait yaradır. Belə ki, turizm sahəsində fəaliyyət göstərən firmaların sayı 2006-2014 illərdə 2,3 dəfə artaraq 218-ə çatmışdır. 2015-ci ildə onların sayı 274 olmuşdur ki, bu da son on ildə 2,9 dəfə artım deməkdir. 2006-2015-ci illərdə yaradılmış turizm firmalarının sayı 178 olmuşdur ki, bu da ümumi sayın 65%- ni təşkil edir (cədvəl 1). Eyni zamanda birgə və xarici turizm firmalarının sayı olduqca azdır və bu xarici investisiyaların milli turizm sənayesinə cəlb edilməsində problemlərin olduğunu göstərir. Problemin həlli məqsədlə müəyyən tədbirlər həyata keçirilsə də bu sahədə dönüş yaradılması üçün turizm potensialı daha geniş təbliğ edilməlidir.

Statistik məlumatlar göstərir ki, turizm şirkətlərinin bütün göstəriciləri üzrə artım var. Firmalarda işləyənlərin sayı 2,3, müəssisələrin gəlirləri 3,7, turizm məhsulu istehsalına çəkilən xərclər 3,8, əhaliyə satılan turizm məhsulunun həcmi 3,3 dəfə artmışdır. Lakin qeyd edilməlidir ki, ölkə xaricinə səyahət üçün satılmış turizm məhsulunun sayı (54900), ölkə ərazisində yerli və əcnəbi turistlərə satılmış turizm məhsullarının cəmindən (6990+4343=11333) 4,8 dəfə çoxdur. Bu o deməkdir ki, Azərbaycan hələlik turizm idxalçısı olaraq qalır. Bu dövrdə ölkə vətəndaşlarının xaricə səfərləri 3,1 dəfə, ölkəyə gələn turistlərin sayı 1,8 dəfə artmışdır. 2012-ci illə müqayisədə gələn turistlərin sayında azalma var-19%.

**Cədvəl 1**

**Turizm müəssisələrinin əsas göstəriciləri**

| Göstəricilər | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | Artım, dəfə |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Müəssisələrin sayı | 96 | 117 | 123 | 124 | 126 | 141 | 170 | 197 | 218 | 2,3 |
| İşçilərin sayı (kənar əvəzçilər daxil edilməklə), nəfər | 779 | 1115 | 1174 | 1393 | 1418 | 1541 | 1730 | 1729 | 1 794 | 2,3 |
| onlardan turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı, nəfər | 612 | 745 | 749 | 1136 | 1159 | 1279 | 1473 | 1 515 | 1 567 | 2,3 |
| Müəssisələrin əldə etdiyi gəlir, min manat | 8480,0 | 15966,6 | 17120,5 | 17839,6 | 19065,3 | 22635 | 27121,5 | 29600,9 | 31 107,1 | 3,7 |
| bilavasitə turizm fəaliyyətindən əldə edilmiş gəlirlər | 4788,1 | 11646,1 | 12987,6 | 14013,6 | 14755,5 | 17804,7 | 21597,1 | 24823,6 | 26 031,0 | 5,4 |
| Məhsul (xidmət) istehsalına çəkilən xərclər, min manat | 7054,4 | 13843,0 | 15612,1 | 16907,9 | 17811,3 | 20662 | 23540,8 | 25292,5 | 27 018,1 | 3,8 |
| bilavasitə turizm fəaliyyətinə | 4094,3 | 9763,1 | 11909,5 | 13220,7 | 13805,7 | 16065,6 | 18903,1 | 21818,2 | 25 708,60 | 6,3 |
| Əhaliyə satılmış turizm yollayış blanklarının sayı, ədəd | 20256 | 26008 | 27055 | 28509 | 34121 | 42583 | 62866 | 65448 | 66 233 | 3,3 |
| ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, ədəd | 2634 | 2820 | 2517 | 3259 | 3385 | 4045 | 5121 | 7078 | 6 990 | 2,6 |
| ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, ədəd | 17385 | 20777 | 20843 | 21776 | 27030 | 34254 | 52378 | 53 771 | 54 900 | 3,0 |
| Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına, ədəd | 237 | 2411 | 3695 | 3474 | 3706 | 4284 | 5367 | 4 599 | 4 343 | 18 |
| Əhaliyə satılmış turizm yollayış blanklarının dəyəri, min manat | 7697,1 | 10356,9 | 11148,9 | 15071,7 | 25848,7 | 29317 | 40693,2 | 42892,3 | 44 820,3 | 5,8 |
| ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, min manat | 5375,8 | 8152,6 | 8112,2 | 12039,8 | 19750,2 | 22583,4 | 33652,3 | 36991,0 | 39 708,5 | 7,4 |
| ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, min manat | 2270,8 | 1945,8 | 1099,5 | 1291,8 | 1708,4 | 2021,1 | 3147,4 | 2747,9 | 2 764,0 | 1,2 |
| Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına, min man. | 50,5 | 258,6 | 1937,2 | 1740,2 | 4390,2 | 4712,1 | 3893,4 | 3153,4 | 2 347,8 | 46,5 |
| Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, nəfər | 45605 | 56290 | 59607 | 59700 | 69923 | 83620 | 101431 | 91 961 | 92 305 | 2,0 |

Turizm müəssisələri gəlirlərinin turistlərin sayından asılılığını cüt reqressiya tənliyi vasitəsilə öyrənmək üçün funksiyanın növü təcrübi yolla seçilmiş və xətti reqressiyaya üstünlük verilmişdir. Turizm müəssisələrinin gəlirlərinin (TMG) turistlərin sayından (TSPS) asılılığının reqressiya tənliyinin 2006-2014-cü illər üzrə ekonometrik qiymətləndirilməsinin nəticəsi aşağıdakı kimi olmuşdur:

TMG = 5647.34978097 + 0.367123904995*TSPS (1)

(s.s.) (5647.350) (0.367124)

R-squared=0.896324; Adjusted R-squared=0.879045;

Burada, (s.s) - tapılan parametrlərin standart səhvlərini,

R-squared - determinasiya əmsalını,

Adjusted R-squared isə dəqiqləşdirilmiş determinasiya əmsalını göstərir.

(1) ekonometrik modelinin statistik xarakteristikaları və müvafiq testlərin qiymətləri göstərmişdir ki, model adekvatdır.

(1) modelinin nəticələrinə görə ölkəyə gələn hər nəfər turist, turizm müəssisələrinin gəlirlərini 367,1 manat artırır və müəssisələrin rəsmi statistikaya düşməyən gəlirləri orta hesabla 5647.349 min manat olmuşdur. Tədqiq olunan illərdə ölkəyə gələn turistlərin sayının 32 min nəfər olduğunu nəzərə alsaq, hər turist üçün qeydiyyata düşməyən gəlir 175 manat olur. Bu amili də nəzərə alsaq hər bir turist turizm müəssisələrinə 542,1 manat gəlir gətirmiş olur. 2014-cü ildə

əhaliyə 44820,3 min manat dəyərində 66233 ədəd turizm yol vərəqi verilmişdir ki, bunlardan 11333-ü ölkə daxilində, 54900-ü isə xaricə səyahət etmək üçün nəzərdə tutulmuşdur. Son 9 il ərzində ayrı-ayrı ölkələrdən (12578,2 min) min nəfər turist qəbul edilmiş və 27121,3 min nəfər turist Azərbaycandan kənara göndərilmişdir. Ümumiyyətlə, 2014-cü ildə 4244,3 min və ya 2006-cı ilə nisbətən 2408,4 min nəfər çox turistə xidmət göstərilmişdir. Respublika ərazısində 672 345 nəfərə yerləşmə xidmətləri göstərilmiş və bu xidmətlərin 64%-i Bakı şəhərinin, 9%-i Naxçıvan, 7%-i Gəncə-Qazax, 6%-i Ouba-Xaçmaz, 5%-i Şəki-Zaqatala, 3%-i Aran, 3%-i Lənkəran, 2%-i Daglıq Şirvan, 1%-i Abşeron iqtisadi rayonlarının payına düşmüşdür. Turistlərin 70,1 faizi qonaq evlərində və mehmanxanlarda, 18,7%-i rayonlarda isirahət mərkəzlərində yerləşdirilmişdir.

Ölkəmizə gələn turistlərə satılmış turist yol vərəqlərinin sayının və ölkəyə daxil olan turistlərin sayının trend modelinin qiymətləndirilməsinin nəticələri aşağıdakı kimi olmuşdur:

LOG(TSPS)=7.16481721898+0.218103199966*@TREND+0.171917166135*FIKTIV (2)

(s.s.) (0.071288) (0.004163) (0.003963)

R-squared=0.999964; Adjusted R-squared=0.999893;

Burada, TSPS - satılmış turizm yollayışı blanklarının sayını,

*@TREND - zamanı,

*FIKTIV - 2012-ci ildə Avroviziya mahnı yarışmasının turistlərin sayının artmasına səbəb olmasını göstərən dəyişəni,

(s.s) - tapılan parametrlərin standart səhvlərini,

R-squared - determinasiya əmsalını,

Adjusted R-squared isə dəqiqləşdirilmiş determinasiya əmsalını göstərir.

(2) ekonometrik modelinin statistik xarakteristikaları və müvafiq testlərin qiymətləri göstərmişdir ki, model adekvatdır.

Determinasiya əmsalı qiymətinin 0.999964 ədədinə bərabər olması göstərir ki, tədqiq olunan dövrdə turistlərin sayının dəyişməsinin 99,99%-i modeldə nəzərə alınan amillərin, 0,01%-i isə modeldə nəzərə alınmayan amillərin hesabına izah edilə bilər. Dəqiqləşdirilmiş determinasiya əmsalı qiymətinin determinasiya əmsalının qiymətinə xeyli yaxın olması bu nəticənin təsadüfülüyünün xeyli az olduğunu göstərir. Parametrlərin tapılmış qiymətlərinin standart səhvləri müvafiq parametrin qiymətlərindən xeyli kiçik olması göstərir ki, parametrlərin tapılmış qiymətləri 99%-dən yuxarı ehtimalla doğrudur.

(2) modelindən alınan nəticələrə görə hər il orta hesabla ölkəyə gələn turistlərin sayı 21,8% artır, 2012-ci ildə keçirilən Avroviziya mahnı yarışması gələn turistlərin sayını əlavə olaraq 12% atırmışdır. Modelin proqnoz məqsədləri üçün istifadə edilməsi üçün modelə AR(1)-1-ci tərtib avtoreqressiya və MA(2)-2-ci tərtibdən sürüşkən orta daxil edilmişdir.

Statistik məlumatlara əsasən ölkədə fəaliyyət göstərən turizm firmalarının 95,4%-i, yerləşmə müəssisələrinin 31%-i, istirahət-əyləncə mərkəzlərinin 42,4%-i, sanatoriyaların 74%-i, pansionatların 81,3%-i Abşeron iqtisadi rayonunda fəaliyyət göstərir. Digər əsas göstəricilər üzrə də bu rayon öndə gedir. 2006-cı ildə ümumi gəlirlərin 90%-i, 2014-cü ildə 73% onun payına düşmüşdür. Bu müddət ərzində turizm müəssisələrinin gəlirləri artan iqtisadi rayonlar Naxçıvan (485 dəfə), Gəncə-Qazax (63 dəfə), Aran (7 dəfə), Bakı (4 dəfə), Abşeron (2 dəfə) olmuşdur. Yuxarı Qarabağ, Kəlbəcər-Laçın iqtisadi rayonları barədə məlumatlar mövcud deyildir.

Regionlar üzrə turizm müəssisələrinin müxtəlif maddələr üzrə xərclərinin səviyyəsində də kəskin fərqlər var. Bunun əsas səbəbi fəaliyyət göstərən müəssisələrin əsasən Bakı şəhərində yerləşməsidir. Müəssisələrin 2014-cü ildə ümumi xərcləri 27018,1 min manat təşkil etmişdir. Onlardan 22504,5 min manatı (83%) Bakıda, 4310,7 min manatı (16%) Naxçıvanda, 115,5 min manatı (0,4%) Abşeron iqtisadi rayonunda, 29,7 min manatı (0,1%) Aran iqtisadi rayonunda, 57,7 min manatı (0,002%)Gəncə-Qazax iqtisadi rayonunda fəaliyyət göstərən müəssisələrin payına düşür. Müəssisələrin məhsul istehsalına xərcləri cədvəl 1.-də verilir.

Azərbaycanda turizmin bütün göstəricilərində olduğu kimi xərclərin statistikası da lazımi səviyyədə aparılmır. Şəki-Zaqatala, Quba-Xaçmaz, Dağlıq Şirvan iqtisadi rayonlarında turizm müəssiələrinin bir çox göstəriciləri üzrə məlumatlar verilmir. Bunun əsas səbəblərindən biri həmin rayonlarda turizm firmalarının fəaliyyət göstərməməsidir. Belə ki, hal-hazırda ölkədə faktiki fəaliyyət göstərən 274 turizm müəssisəsindən 267-si Bakıda, 3-ü Gəncə-Qazax iqtisadi rayonunda (Gəncə ş.), 3-ü Abşeron iqtisadi rayonunda (Sumqayıt ş.), 1-i isə Şəki-Zaqatala iqtisadi rayonunda (Şəki ş.) fəlaiyyət göstərir.

Turizmin mühüm funksiyalarından biri istehsal olunmuş xidmət və məhsulların ixracına nail olmaqdan ibarətdir. Bu məqsədlə ölkəyə turist axınları təşviq edilməli, müxtəlif tədbirlər həyata keçirilməlidir. Cədvəl 1.-dən göründüyü kimi qəbul edilən və göndərilən turistlərin sayında artım (təxminən 10%) müşahidə edilir, lakin bu artım ölkəmizin turizm potensialına adekvat hesab edilə bilməz. 2012-ci ildə bu göstərici Avroviziya mahnı yarışmasına görə nisbətən artıq olmuşdur-12%. Deməli bu tip tədbirlərin mütəmadi təşkili əlavə turist axınına stimul verə bilər. Bu göstərici üzrə də Bakı öndə gedir-84%. Sonrakı yerləri Naxçıvan, Aran, Abşeron və Gəncə-Qazax iqtisadi rayonları tutur. 2014-cü ildə satılmış 66233 yollayış blanklarının cəmi 11333-ü (12%-i) ölkə ərazisində səyahət edən turistlərə satılmışdır. Azərbaycanın turizm potensialı bu ölkələrin göstəricilərindən geri qalmasa da, turizm idxal-ixrac göstəriciləri arasında tərəfdaşların xeyrinə kəskin fərqlər var: Rusiya (4192/11181), Türkiyə (4174/31231), Gürcüstan (154/1182), BƏƏ (12/6376), Birləşmiş Krallıq (40/804), İran (14/2513) və s.

İşsizlik probleminin həllində turizmin rolu yüksək qiymətləndirilir. ÜTT və WTTC-yə görə dünyada hər 12 nəfərdən biri bu sahədə çalışır. Azərbaycanın turizm müəssisələrində 2014-cü ildə 1794 nəfər işçi çalışmışdır. Onların da 1688 nəfəri (94%) Bakı şəhərində fəaliyyət göstərən müəssisələrin payına düşür. Digər iqtisadi rayonlarda turizm müəssisələrində çalışan işçilərinin ümumi sayı 106 nəfər təşkil edir. Bu da regionlarda turizm sahibkarlığı sahəsində problemlərin səviyyəsini göstərir.

WTTC-nin 2014-cü il üzrə məlumatlarına əsasən ölkəmizdə bilavasitə turizm fəaliyyəti ilə məşğul olanlar ümumi işləyənlərin 2,0 %-ni təşkil edir. Turizm sənayesində çalışan ümumi işçilərin sayı isə 1974 nəfər təşkil edir və bu da ümumi işləyənlərin 8,0%-i deməkdir. Azərbaycan bu göstəricilərə görə 184 ölkə arasında müvafiq olaraq 148 və 159-cu yerləri tutur. Regionlarda yeni turizm komplekslərinin yaradılması işsizlik problemlərinin həllinə müsbət təsir edər, regionlar üzrə turizmin inkişaf göstəricilərinin balanslaşdırılmasına imkan verər.

Mövcud rekreasiya ehtiyatları əsasında müasir tipli kurort-rekreasiya mərkəzləri yaradılmalı, onların təşkilati-idarəetmə strukturları formalaşdırılmalı və idarəetmənin forma və metodları müəyyən edilməlidir. Cədvəl 2.-dən göründüyü kimi, 2006-2015-ci illərdə bütün növ kurort-rekreasiya müəssisələrinin statistik göstəriciləri üzrə artım cox azdır, əksinə, əsas göstəricilər üzrə geriləmə var. Bu, həmin müəssisələrin funksional təyinat üzrə məqsədli istifadə edilməsində mövcud əngəllərlə bağlıdır.

**Cədvəl 2.**

**Dövlət sanatoriyaları, istirahət və turizm müəssisələri**

| Göstəricilər | İllər | | | | | | | | 2006-cı illə müqayisədə artım (+) və ya azalma (-), %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2006 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | |
| Sanatoriyaların və istirahət ocaqlarının sayı | 84 | 75 | 75 | 75 | 73 | 73 | 72 | 70 | -17 |
| Onlarda çarpayıların sayı | 13905 | 11277 | 11659 | 12265 | 11168 | 10668 | 10419 | 10004 | -28 |
| Sanatoriyaların və müalicə pansionatlarının sayı | 40 | 33 | 33 | 33 | 29 | 30 | 30 | 30 | -25 |
| Onlarda çarpayıların sayı | 10198 | 8377 | 8393 | 8368 | 5695 | 5785 | 5765 | 5662 | -44 |
| Sanatoriya-profilaktoriyaların sayı | 4 | 4 | 4 | 4 | 3 | 3 | 2 | 2 | -50 |
| Onlarda çarpayıların sayı | 65 | 65 | 65 | 65 | 51 | 51 | 64 | 64 | -2 |
| İstirahət pansionatlarının sayı | 13 | 13 | 13 | 13 | 20 | 19 | 19 | 18 | +38 |
| Onlarda yerlərin sayı | 1119 | 1112 | 1030 | 1578 | 2438 | 2146 | 2146 | 1898 | +70 |
| Turist bazalarının və istirahət evlərinin sayı | 27 | 25 | 25 | 25 | 17 | 17 | 16 | 15 | -45 |
| Onlarda yerlərin sayı | 2523 | 1723 | 2171 | 2204 | 2289 | 1991 | 1737 | 1620 | -36 |

Statistik təhlildən göründüyü kimi, mövcud turizm potensialından istifadənin aşağı səviyyədə olmasına baxmayaraq, turizm müəssisələrinin əksər

göstəriciləri üzrə inkişaf var. Bu turizmin ümumi iqtisadi inkişafda və sosial-iqtisadi problemlərin həllində müəyyən rol oynadığını göstərsə də, ölkəyə turist axınının təşviq edilməsində, səmərəli turizm fəaliyyətinin təşkilində, digər sahələrlə vahid sistem kimi funksional əlaqələrin yaradılmasında, insanların turizm prosesinə texnoloji yanaşmasında və qiymətləndirməsində dünya standartlarına uyğun və rəqabət qabiliyyətli turizm sənayesinin formalaşmasında problemlər, turizmin regionlar üzrə inkişaf sürəti arasında hələ ki, müəyyən fərqlər və struktur uyğunsuzluqları qalmaqdadır. Azərbaycanın regionlarında mövcud potensial qeyd edilən problemlərin həllinə imkan verir.

Turizm sənayesi müxtəlif xarakterli fəaliyyət sahələrinin məcmusu kimi formalaşdığından, turizmdə sahibkarlıq fəaliyyəti bir neçə istiqamətdə həyata keçirilir. Bu istiqamətlərdən biri mehmanxana biznesi sahəsidir. Yerləşmə müəssisələri qidalanma, əyləncə və nəqliyyat müəssisələri ilə birlikdə turizm sənayesinin əsasını təşkil edir və bu sahələrdə turizm məhsulunun əsas xidmətləri istehsal edilir.

Turizm məhsulunun formalaşmasında yerləşmə müəssisələri mühüm rol oynayır. Səfər zamanı turistlərin gecələməsinin təmini, turizm prosesinin ən mühüm mərhələsi olduğuna görə mehmanxana təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafına xüsusi diqqət verilməli, normativ-hüquqi baza yaradılmalı, mehmanxana biznesinin fəaliyyət formaları stimullaşdırılmalıdır. Bu sahədə sahibkarlığın inkişafına nail olmaq bir çox şərtlərin təmin olunmasını tələb edir. Bu şərtlər aşağıdakı şəkil 1.də təsvir edilir.




**Şəkil 1. Mehmanxana təsərrüfatı sahəsində sahibkarlığın inkişafına təsir edən amillər**

Qeyd olunan şərtlərin əksəriyyətinin təmin olunması, ölkədə mehmanxana təsərrüfatı subyektlərinin sayının artmasını stimullaşdırmışdır. Statistik məlumatlardan görünür ki, 2006-2014-cü illərdə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 88% artaraq 285-dən 535-ə çatmışdır. 2006-cı ildə bu müəsisələrdə nömrə fondları və yerlərin sayı 11403 vahiq və 24706 yer təşkil

etmişdirsə, 2014-cü ildə bu göstəricilər artaraq müvafiq olaraq 17363 vahid və 35652 yer olmuşdur. Bu illərdə müəssisələrdə yerləşmiş turistlərin sayı 291617 nəfərdən 672345 nəfərədək artmışdır.

2006-cı ildə xarici turistlərin sayı 52%-dən 2014-cü ildə 58%-ə yüksəlmiş, gecələmiş turistlərin 36%-ni işgüzar, 35%-ni istirahət və əyləncə, 7%-ni müalicə, 22%-i isə digər məqsədlərlə gəlmiş turistlər təşkil etmişdir. Yerləşmə müəssisələrində işləyənlərin sayının 4338 nəfərdən 9009 nəfərədək yüksəlməsi, məşğulluq probleminin həllinə müsbət təsir edir. İşləyənlərə ödənilmiş əmək haqqı 2014-cü ildə 46008,7 min manat, orta əmək haqqı 2006-cı ildə 222 manat, 2014-cü ildə 511 manat olmuşdur. Bu da 2006-cı illə müqayisədə 2,3 dəfə çoxdur. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə Respublikamızda orta əmək haqqı 444,3 manat olmuşdur.

Mövcud 535 müəssisələrin 489-u şəxsi (92%), 27-si dövlət (5%), 13-ü xarici (2%) və 6-ı birgə (1%) müəssisələrdir. Tədqiq olunan dövrdə şəxsi müəssisələrin sayı 208-dən 489-a (2,4 dəfə), xarici müəssisələrin sayı 8-dən 13-ə (1,6 dəfə), birgə müəssisələrin sayı 4-dən 6-ya (1,5 dəfə) artmış, dövlət müəssisələrinin sayı isə 65-dən 27-yə qədər (2,4 dəfə) azalmışdır. Bu, mehmanxana təsərrüfatı sahəsində fərdi sahibkarlığın sürətlə inkişafı üçün əlverişli biznes mühitinin yaradılması və özəlləşdirmə siyasətinin uğurla aparılmasının göstəricisidir.

Mehmanxana tipli müəssisələrin təxminən üçdə biri Bakı şəhərində cəmlənmişdir. Ümümi yerləşmə yerlərinin 11792-i paytaxt, 9127-i Quba-Xaçmaz, 3139-u Lənkəran, 2773-ü Gəncə-Qazax, 2469-u Şəki-Zaqatala iqtisadi rayonlarındakı müəssisələrin payına düşür.

Müəssisələrin gəlirlərinin iqtisadi ryonlar üzrə kəskin fərqlənməsi və qeyri-bərabər paylanması nəzərə çarpır. Gəlirlərin 83%-i (150200,4 min man.) paytaxtda, qalanı Abşeron-0,6% (1051,7 min man.), Gəncə-Qazax- 4,8% (8630,0 min man.), Quba-Xaçmaz 4,6% (8298,1 min man.), Naxçıvan-2,6% (4639,3 min man.), Lənkəran-1,5% (2712,8 min man.), Şəki-Zaqatala-1,4% (2556,7 min man.), Dağlıq Şirvan-0,9% (1755,5 min man.), Aran-0,6% (1192,7 min man.), Yuxarı Qarabağ (0,006 min man.) iqtisadi rayonlarında yerləşən müəssisələrin payına düşür.

Tədqiq olunan dövrdə bütün iqtisadi rayonlarda yerləşmə müəssisələrinin göstəricilərində artımın müşahidə olunması sevindirici haldır. Eyni zamanda müxtəlif bölgələrdə müasir tipli yerləşmə müəssisələrinin yaradılması onların regionlar üzrə balanslaşdırılmış paylanmasını təmin edər, ərazilərdə sosial-iqtisadi problemlərin həllinə, bölgələrdə turistlərə yüksək keyfiyyətli mehmanxana xidmətləri göstərilməsinə, turizm sənayesi infrastrukturunun yaradılmasına, mehmanxana təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyətinin inkişaf etməsinə zəmin yaradar.

“Sahibkarlıq haqqında Azərbaycan Respublikası qanunu”nunda deyilir: sahibkarlıq fəaliyyəti əmlakdan istifadə, məhsul satışı, görülmüş iş və göstərilmiş

xidmətlərin müqabilində qazanc əldə etməyi qarşıya məqsəd qoyan fəaliyyət formasıdır və qanunda nəzərdə tutulmuş qaydada qeydiyyatdan keçmək şərtilə, fiziki və hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

Turizmdə sahibkarlıq fəaliyyətinin əsas funksiyası müxtəlif çeşid turizm məhsul və xidmətləri tərtib və istehsal edərək turizm bazarına təklif etmək, turistlərin tələbatlarını ödəmək və yekunda buna görə maddi gəlir əldə etməkdən, fəaliyyətin əsas spesifik xüsusiyyəti isə xidmət istehsalı və göstərilməsindən ibarətdir. Bu proses mahiyyətcə gəlir əldə etmək üçün məqsədyönlü, istiqamətlənmiş fəaliyyət olub axtarış, rabitə, əlaqə, iş və s. elementlərin məcmusundan ibarətdir. Turizmdə sahibkarlığın səmərəliliyinin təmini üçün yeni çeşid məhsullar yaratmaq, innovativ texnologiyalardan yararlanmaq, yeni satış bazarları müəyyən edərək onun konyukturunu öyrənmək, yeni məhsulların satışını təmin etmək, daha çox istehlakçı auditoriyasına sahib olmağa çalışmaq və s. vacibdir. Turizm sahəsində tələbat və şəraitdən asılı olaraq sahibkarlıq fəaliyyəti ticarət, istehsal, ticarət-istehsal, xidmət, tövsiyə-məsləhət və qarışıq xarakterli ola bilər.

Turizmdə məhsul istehsalına güzəştli investisiyaların cəlb edilməsi xərclərin azalması, məhsulun turizm bazarında hərəkət etdirilməsi və satışının daha səmərəli şərtlərlə təmin edilməsinə, daha çox gəlir əldə edilməsinə zəmin yaradır.

Turizm sahəsində fəaliyyət göstərən sahibkar turizmin nəzəri və təcrübi əsaslarını, turizm bazarının xüsusiyyətlərini, turistlərin davranış və psixologiyasını, istehlak tələbatlarını, motivləşməsini bilməli, məqsədli auditoriyanı istiqamətləndirməyi bacarmalı, yüksək təşəbbüskarlıq keyfiyyətinə malik olmalı, təsadüfi, qeyri-müəyyən, turizm mövsümündən asılı olan elastik xarakterli amilləri nəzərə almalıdır.

Turizmdə sahibkarlıq fəaliyyəti infrastrukturu spesifik xüsusiyyətlərə malik olub, funksional təyinat istiqamətlərindən, turizmin forma və növlərindən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir. O, bazar tələblərinə uyğun istehsal edilən və göstərilən xidmətlərin xüsusiyyətlərindən asılı olaraq formalaşır, istehsal-xidmət və institusional istiqamətlərdə inkişaf edir. Turizm biznesində informasiya kommunikasiya texnologiylarının, elektron ticarətin və bronlaşdırmanın tətbiqi, informasiya infrastrukturunun yaradılmasını aktuallaşdırır (şəkil 2).

Turist axınlarının təşviqi, turizm bazarındakı tərəfdarlar, rəqiblər, tələbat, keyfiyyət standartları, investorlar və s. barədə informasiya əldə edilməsi və fəaliyyətin optimallaşdırılması, çevik idarəetmə qərarlarının qəbulu, sahibkarlıq fəaliyyətinin daha səmərəli təşkili müxtəlif mənbələrdən alınan informasiya təminatının səviyyəsindən asılıdır. İxtisaslaşmış turizm informasiya infrastrukturu informasiya daşıyıcı vasitələrinin məcmusu kimi nəzərdən keçirilə bilər. İnformasiya infrastrukturunun formalaşmasında ümumi sahibkarlıq fəaliyyətinin və ixtisaslaşmış turizm informasiya infrastrukturuna daxil olan informasiya mənbələrinə istinad edilir.




**Şəkil 2. Turizmdə sahibkarlığın informasiya infrastrukturu**

Turizmdə sahibkarlığın ixtisaslaşdırılmış informasiya infrastrukturu özündə turizm üzrə informasiya daşıyıcılarının və reklam materiallarının struktur elementlərini birləşdirir.

**"Regional turizm komplekslərinin təşkili və inkişafının prioritet istiqamətləri" adlanan beşinci fəsildə** regional turizm mərkəzlərinin planlaşdırılması və inkişaf strategiyasının formalaşdırılması, turizm ehtiyatlarının xüsusiyyətləri, istifadə istiqamətləri, təsnifləndirilməsi, qiymətləndirilməsi, inventarlaşdırılması, turizmin müxtəlif növ və formalarında istifadə üçün kataloqlaşdırılması məsələləri nəzərdən keçirilir. Regional turizm ehtiyatları əsasında turizm məhsullarının tərtibi, istehsalı və satışının təşkili üçün optimal strategiya əsaslandırılır.

Regional turizm komplekslərinin strateji inkişaf konsepsiyasının işlənməsi zamanı prosesə kompleks, sistemli yanaşma təmin edilməli, sistemin bütün subyektlərini əhatə edən, inkişafın müsbət təsirinin rasional paylanmasını nəzərdə tutan tədbirlər məcmusu kimi baxılmalıdır. Regionun ümumi inkişafı prosesinə inteqrasiya konsepsiyanın əsas istiqamətlərindən biri kimi qəbul edilməli, məqsədlərin reallşdırılması mümkünlüyü proqnozlaşdırılmalı, istehsal fasktorlarının səmərəli istifadəsi və s. məsələlər həll edilməlidir.

Turizm mərkəzlərinin inkişaf konsepsiyasının işlənməsində əsas məqsəd regionlarda turizmin dayanıqlı inkişafını təmin etməkdən, regional problemlərin həllində turizmin rolunu yüksəltməkdən, regionun turizm ehtiyatlarından istifadə etməklə, turizm tələbatlarını ödəməkdən, regional turizmin rəqabət qabiliyyətini yüksəltməkdən, qeyri-adi milli turizm məhsullarını beynəlxalq turizm bazarına çıxarmaq və satışını stimullaşdırmaqdan, ekoloji mühiti və yerli əhalinin maraqlarını qorumaqdan və s. ibarətdir.

Azərbaycanda regional turizm komplekslərinin dayanıqlı inkişafının təmini regionda olan və analoji ehtiyatlardan bioloji-antropogen, ibtidai formasını saxlama səviyyəsi, hiss edilə bilməsi, spesifikliyi, satıla bilmə səviyyəsi və s. əlamətləri ilə fərqlənən turizm ehtiyatlarını müəyyən edərək rəqabət qabiliyyətli turizm məhsulları tərtib və istehsal etməyi, sahibkarlıq fəaliyyətinin təşviqi üzrə xüsusi proqramlar hazırlamağı tələb edir.

Azərbaycanda regional turizm komplekslərinin inkişafına bilavasitə təsir edən əsas amillərin nəzərə alınması vacib şərtlərdəndir və onlar: 1.Spesifik regional turizm məhsullarının istehsal amillərinin mövcudluğu; 2.Bilavasitə turzm sənayesi sahələrinin formalaşdırılması; 3.Turizm məhsulu komponentləri istehsalı üzrə ixtisaslaşmış regional müəssisələrin fəaliyyətinin əlaqələndirilməsi; 4.Turizmlə əlaqəli sahələrin inkişafı; 5.Regional turizm məhsullarının istehsalı və satışının stimullaıdırılması üzrə tədbirlərin həyata keçirilməsi. kimi qruplaşdırıla bilər.

Turizm komplekslərini inkişaf etdirmək üçün müəyyən edilmiş beş qrup vacib amillərin xüsusiyyətləri təhlil edilərək turizm kompleksinin və ümumilikdə regionun inkişafında onların rolu əsaslandırılmalı və regional turizm mərkəzlərinin planlaşdırılması, inkişafı və idarə edilməsi prosesinin təşkilati-texnoloji əsasları formalaşdırılmalıdır. Bu, turizm kompleksinin perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmağa, region üçün perspektivli hesab edilən turizm növlərinin inkişafı məqsədilə xüsusi proqramların tərtibi və reallaşdırılmasına, nəticələrin statistikasının aparılması, təhlili və qiymətləndirilməsinə imkan verər. Prosesin təşkilati-texnoloji sxemi şəkil 3.-də verilir.

Əldə edilən nəticələr sistemləşdirilərək gələcək fəaliyyətin əsas istiqamətləri müəyyən edilməli, geniş çeşid xidmətlər kompleksi istehsal və təklif edərək məqsədli auditoriyanın cari və perspektiv tələbatlarının ödənməsi təmin edilməlidir ki, regiona turist axını stimullaşsın.

Turizm fəaliyyəti bilavasitə təbii ehtiyatlardan istifadəyə əsaslanır. Tuirzm ehtiyatları bilavasitə turizm məqsədilə istifadə edilən, turizm məhsulu istehsalı prosesinə cəlb edilən, insanlarda səyahət motivi yaradan və onların fiziki, psixoloji, emosional və intellektual güclərinin bərpasını təmin edən obyektlərin məcmusudur.

Turizm ehtiyatlarından səmərəli istifadə edilməsi üçün onun mahiyyətini və xüsusiyyətlərini bilmək vacibdir. Ehtiyatların funksional təyinatına uyğun istifadəsinin nəticəsi olaraq meydana gələn iş, məhsul və ya xidmətlər istehlak

dəyərinə malik olmaqla, turizm tələbatlarını ödəyirlər. Coğrafi mövqe, attraktivlik (cəlbedicilik), təbii-iqlim şəraiti, öyrənilmə və ya tədqiq olunma dərəcəsi, ekskursiya üçün əhəmiyyətliliyi, mənzərə və videoekoloji əhəmiyyəti, sosial-demoqrafik xüsusiyyəti, istifadə olunma üsulu, mövcud potensial ehtiyat, bərpaedicilik qabiliyyəti, istifadəyə yararlılığı, nəqliyyat üçün əlverişliliyi, enerji-informasiya əlaməti və s.
onların xarakterik xüsusiyyətləridir.




**Şəkil 3. Regional turizm mərkəzlərinin planlaşdırılması, inkişafı və idarə edilməsi prosesinin təşkilati-texnoloji mərhələləri**

Regional turizmin təşkili və inkişafı mövcud turizm ehtiyatlarının təsnifləndirilməsini şərtləndirir. Bu region üçün spesifik ehtiyatların turizmin forma və növlərində istifadə istiqamətlərinin müəyyən, mahiyyətinin dərk edilməsinə imkan verir. Turizm ehtiyatlarının mövcud təsnifləndirmə sistemləri dəqiq əlamətlərə görə aparılmır və qrupları müəyyən edən meyarlar dəyişkən xarakterli olduğundan, bir qrupa daxil olan turizm ehtiyatları eyni zamanda başqa qrupa da aid edilə bilir ki, bu da çaşqınlıq yaradır.

Hesab edirik ki, tutizm ehtiyatlarının xüsusiyyətlərindən, mənşəyindən, rekreasiya məqsədilə istifadə imkanlarından, onların turizm prosesində iftifadə olunma metod və istiqamətlərindən asılı olaraq aşağıdakı kimi qruplaşdırılması daha məqsədəuyğundur:

1.Təbii turizm ehtiyatları. 2. Antropogen turizm ehtiyatları (əsas və əlavə antropogen turizm ehtiyatları). 3. Təbii-antropogen turizm ehtiyatları. 4. Turizmdə sahibkarlıq fəaliyyəti infrastrukturuna aid olan ehtiyatlar. Şəkil 4.-də turizm ehtiyatlarının təkmilləşdirilmiş təsnifatı verilmişdir.

Turizm ehtiyatlarının səmərəli istifadəsinin təmini onların qiymətləndirilməsindən bilavasitə asılı olur. Bu proses onların turizm motivi yaratmaq və turizm tələbatlarını ödəmək xüsusiyyətlərini, turizmdə istifadə istiqamətlərini müəyyən etməyə imkan verir. Turizm ehtiyatlarının texnoloji, estetik, iqtisadi, kəmiyyət və keyfiyyət, ekoloji, tibbi-bioloji, riyazi və s. qiymətləndirmə metodları məlumdur. Bu metodları təhlil edərək belə qənaətə gəlmək olar ki, onların hər biri turizm ehtiyatlarının müəyyən əlamətlərinin qiymətləndirilməsini nəzərdə tutur və regionda mövcud turizm ehtiyatları kompleksinin qiyməti haqqında dolğun informasiya əldə edilməsinə imkan vermir.

Araşdırma nəticəsində belə qənaətə gəlinmişdir ki, turizm ehtiyatlarının qiymətləndirilməsində əsas meyar kimi onların mahiyyətini əks etdirən xassələri (əlamətləri) götürülməlidir. Yeni metodda əlamətlərin ayrı-ayrılıqda öyrənilməsi və hər birinin 20 ballıq şkala ilə 4 dərəcə üzrə qiymətləndirilməsini və ümumi qiymətin orta bal kimi götürülməsini təklif edirik.

Turizm ehtiyatlarının mahiyyətcə qiymətləndirilməsi zamanı obyektivliyin təmin edilməsi, qiymətləndirməni həyata keçirən ekspertlərin peşəkarlıq səviyyəsindən asılı olur.

Qeyd etdiyimiz kimi, hər bir ehtiyatın göstəriciləri 20 ballıq şkala ilə qiymətləndirilir və onun orta qiyməti tapılır. Hesablama aşağıdakı düsturla aparılır:

$$Q_{1or}=x_{1,1}+x_{1,2}+x_{1,3}+x_{1,4}+...+x_{1,n}; \quad (5.1.).$$

Burada $Q_{1or}$-hər bir turizm ehtiyatına bütün xassələri üzrə verilən balların orta qiyməti;

$x_{1,1}$, $x_{1,2}$,$x_{1,3}$,$x_{1,4}$, $x_{1,n}$-hər bir turizm ehtiyatının xassələr üzrə aldığı ballardır.

Regionun turizm ehtiyatlarının ümumi qiyməti isə bu düsturla hesablanır:

$$Q_{ü} = \frac{Q_{1or}+Q_{2or}+Q_{3or}+Q_{4or}+\dots+Q_{nor}}{Q_n}; \quad (5.2.).$$

Burada $Q_{ü}$-regionda mövcud turizm ehtiyatlarının ümumi qiyməti;

$Q_{1or}$, $Q_{2or}$, $Q_{3or}$, $Q_{4or}$, $Q_{nor}$-regionun qiymətləndirilmiş turizm ehtiyatlarına xassələr üzrə verilən balların orta qiyməti;

$Q_n$–orta qiyməti müəyyən edilmiş ehtiyatların sayıdır.

Qiymətləndirmənin sistemli təşkili və optimal nəticənin əldə edilməsi məqsədilə aşağıdakı cədvəldən istifadəni məqsədəuyğun hesab edirik.




**Şəkil 4. Turizm ehtiyatlarının təsnifləndirilməsi**

3. cədvəlindən istifadə edərək ehtiyatın hər bir xassə üzrə hesablanmış balı ($x_{1,1}$, $x_{1,2}$, $x_{1,n}$), (5.1.) düsturundan istifadə etməklə onun orta balını müəyyən etməyə imkan verir. Ehtiyatların hər birinin orta qiyməti onların sayına bölünərək

ərazidə olan ehtiyatların ümumi orta qiyməti (5.2.) düsturu ilə hesablanır. Nəticədə alınan ümumi qiymətə ($Q_ü$) əsasən regionun turizm ehtiyatlarının yararlılıq səviyyəsinin aşağıdakı kimi müəyyən edilməsini təklif edirik:

1.Tam yararlı (16-20 bal);

2. Yararlı (11-15 bal);

3. Qismən yararlı (6-10 bal);

4. Yararsız (1-5 bal).

**Cədvəl 3.**

**Turizm ehtiyatlarının mahiyyətcə qiymətləndirilməsi metodu cədvəli**

| | Turizm ehtiyatlarının xassələri / Turizm ehtiyatları | Coğrafi mövqe | Cəlbedicilik | Təbii-iqlim şəraiti | Öyrənilmə və ya tədqiq olunma dərəcəsi | Ekskursiya üçün əhəmiyyətliliyi | Mənzərə və videoekoloji xüsusiyyəti | Sosial-demoqrafik xüsusiyyəti | İstifadə olunma üsulu | Nəqliyyat üçün əlverişliliyi | Mövcud potensial ehtiyat | Rekreasiya(bərpa) xüsusiyyəti | İstifadəyə yararlılığı | Enerji-informasiya xüsusiyyəti | Orta bal |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Turizm ehtiyatları | Q i y m ə t l ə r | | | | | | | | | | | | | |
| 1 | Təbii şəraiti | | | | | | | | | | | | | | |
| 2 | Təbii abidələr | | | | | | | | | | | | | | |
| 3 | Tarixi abidələr | | | | | | | | | | | | | | |
| 4 | Mədəni abidələr | | | | | | | | | | | | | | |
| 5 | Landşaft | | | | | | | | | | | | | | |
| 6 | Dini abidələr | | | | | | | | | | | | | | |
| 7 | Qeyri-adi qurğu və tikililər | | | | | | | | | | | | | | |
| 8 | Yerləşmə vasitələri | | | | | | | | | | | | | | |
| 9 | Rabitə vasitələri | | | | | | | | | | | | | | |
| 10 | Nəqliyyat və transfer vəsitələri | | | | | | | | | | | | | | |
| 11 | Kommunal infrastruktur | | | | | | | | | | | | | | |
| 12 | Qidalanma müəssisələri | | | | | | | | | | | | | | |
| 13 | İstirahət və əyləncə müəssisələri | | | | | | | | | | | | | | |
| 14 | Təhlükəsizlik xidməti müəssisələri | | | | | | | | | | | | | | |
| 15 | Tədris və sağlamlıq müəssisələri | | | | | | | | | | | | | | |
| 16 | Hidromineral ehtiyatlar | | | | | | | | | | | | | | |
| 17 | | | | | | | | | | | | | | | |
| n | Digər ehtiyatlar | | | | | | | | | | | | | | |
| | Orta bal ($Q_{or}$) | | | | | | | | | | | | | | |
| | Y e k u n bal($Q_ü$) | | | | | | | | | | | | | | |

Turizm ehtiyatlarının inventarlaşdırılması turizm məhsulu və xidmətləri istehsalında istifadə edilən, gələcəkdə istifadəsi nəzərdə tutulan bütün ehtiyatların kəmiyyət, keyfiyyət və statistik göstəricilərinin siyahısının tərtib edilməsidir və metodologiyası çöl işlərinə əsaslanır. Ehtiyatların inventarlaşdırılması nəticəsində onların mahiyyətini əks etdirən informasiyalar sistemləşdirilir, turizm regionu və istehlakçıların maraqları nəzərə alınaraq kataloq tərtib edilir. Kataloq, ehtiyatların

əlamətlər və istifadə edilmə istiqamətləri üzrə qruplaşdırılmış, informasiya və izah xarakterli mətnlərlə tamamlanmış nəşri və ya elektron məlumat, reklam vəsaitidir.

Regional turizm komplekslərinin strateji mədsədlərdən biri, yeni çeşid məhsul istehsalına nail olmaqdır. Yeni məhsul turizm mərkəzinə görə, fərqli keyfiyyət göstəriciləri və motivəşdirici xüsusiyyətlərə malik, ilk dəfə istehsal olunan və bazara təklif edilən, turist üçün isə ilk dəfə istehlak olunan, fərdi, elastik, rəngarəng, zövq oxşayan və ekoloji mahiyyətli məhsuldur.

Yeni turizm məhsulunun üstün cəhətlərinin məqsədli auditoriyaya çatdırılması üçün reklam-informasiya işi təşkil olunmalı, bazara çıxarılma mərhələsində marketinq tədqiqatları həyata keçirilməli, istehlakçılarda yeni məhsula müsbət münasibət formalaşdırılmalı, satışın artırılması, rəqabət qabiliyyətinin yüksəldilməsi və həyat dövrünün uzun müddətliyinin təmin olunması üçün innovativ texnologiyaların diffuziyasından istifadə edərək stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Bu məsələlərə turizm komplekslərinin inkişaf strategiasının formalaşdırılması prosesinin önəmli elementləri kimi yanaşılmalıdır.

Yeni məhsulun bazara daxil olması və tamamilə mənimsənilməsi üçün müəyyən zaman tələb olunur. Bu müddətdə turistlər yeni məhsulun alınması haqqında qərar qəbulu prosesini yaşayır. Qərarın qəbulu mürəkkəb proses olub, istehsalçı və istehlakçı üçün həlledici əhəmiyyətə malikdir və bu prosesin mərhələləri aşağıdakı kimi təsvir edilə bilər (şəkil 5.)




**Şəkil 5. Yeni turizm məhsulunun alınması barədə qərar qəbulunun mərhələləri**

Daimi yaşayış mühitini dəyişmək, fiziki, psixoloji, intellektual vəziyyətini bərpa etmək və s. məqsədlə insanların seçdiyi yeni məhsulun üstünlükləri analoji məhsullarla müqayisə dərk edilir, onun əldə edilməsi qərarı verilir. İstehlakçı yeni məhsulu sınaqdan keçirir, yeni və fərqli keyfiyyət göstəricilərini mənimsəyir və onun istehlak dəyərindən yararlanır. Turistdə məmnunluq hissi formalaşdıqda o, öz yaxınlarına da yeni məhsulun alınmasını tövsiyə edir. Bu, yeni turizm məhsulunun satışına əlavə istehlakçı cəlb edərək satış həcmini artırır, məhsulun

həyat dövrünü uzadır, mənfi təəssürat isə əksinə, məhsulun satış həcminə və həyat dövrünə mənfi təsir edir.

Azərbaycanda turizm komplekslərində tərtib və istehsal edilmiş yeni turizm məhsullarının həyat dövrünün uzadılması üçün optimal strategiyanın müəyyən edilməsi vacibdir. Adətən, yeni turizm məhsulunun bazara çıxarılması zamanı "sürətli gəlir", "zəif gəlir", "bazara sürətlə nüfuz edilməsi", "bazarın tədricən ələ alınması" strategiyaları tətbiq olunur.

Azərbaycanda turizm bazarının xüsusiyyətlərini, ümumi iqtisadi inkişafı, yerli əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsini, xarici turist axınlarının güclənməsini, yeni çeşid turizm məhsullarına tələbatların kəskin artmasını nəzərə alaraq "bazara sürətlə nüfuz edilməsi" strategiyasının tətbiqi məqsədəuyğundur. Eyni zamanda fəaliyyətin uğurla həyata keçirilməsini təmin etmək üçün turizm bazarının qanunauyğunluqları, istehsal və istehlakın həcmi, turistlərin tələbatları və qiymətlərə həssaslığı, rəqabət səviyyəsi və s. amillər nəzərə alınmalı, məhsulun həyat dövrünə təsir edən, dəyişən amilləri müəyyən edərək, strategiyada operativ düzəlişlər edilməlidir.

Azərbaycanda turizm ehtiyatlarından səmərəli istifadə etməklə ölkə ərazisində turizmin inkişaf səviyyəsində mövcud fərqlərin aradan qaldırılması və balanslaşdırılmış inkişafın təmin edilməsi, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması, regional turizm komplekslərinin strateji inkişaf konsepsiyasının formalaşdırılması üzrə kompleks təhlil metodlarından, beynəlxalq təcrübədən istifadə etməklə aparılmış tədqiqata əsasən aşağıdakı nəticə və təkliflər formalaşdırılmışdır:

-turizm turistlərin fərdi tələblərinin ödənilməsində iştirak edən, bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif fəaliyyət sahələrinin məcmusu kimi xarakterizə edilən sosial mahiyyətli kompleks kimi öz spesifik xüsusiyyətlərini, tədqiq olunma metod və üsullarını formalaşdırır. Azərbaycanda turizmin təşkili, inkişafı, idarə edilməsi və tədqiqi, regional xüsusiyyətlər, mövcud təbii turizm və rekreasiya ehtiyatlarının səmərəli istifadəsi və istehsala cəlb olunması prosesi, turizm fəaliyyətinin nəzəri və təcrübi əsasları nəzərə alınmaqla sistemləşdirilmiş kompleks elmi yanaşma əsasında həyata keçirilməlidir.

-Azərbaycan Respublikasının əlverişli coğrafi mövqeyi, zəngin təbii-iqlim şəraiti, təbii ehtiyatları, ərazisinin rəngarəng və qeyri-adi landşaftı, zəngin mədəni-tarixi, dini və arxitektur abidələri, flora və faunası, özünəməxsus məişəti və adət-ənənələri, biomüxtəlifliyi və bioiqlimi, mineral və termal qaynaqları, müalicəvi ehtiyatları, geniş su hövzələri, demoqrafik ehtiyatları, ölkədə məqsədli turizm siyasətinin həyata keçirilməsi, turizmin normativ-hüquqi bazasının formalaşdırılması, beynəlxalq turizm təşkilatlarında təmsilçilik və s. turizmin müxtəlif forma və növlərinin inkişaf etdirilməsi üçün hərtərəfli imkan yaradır. Ona görə mövcud ehtiyatlar funksional təyinatına, istifadə istiqamət və imkanlarına görə qruplaşdırılmalıdır.

-tədqiatlar göstərir ki, turizmin bütün ölkə ərazisində geniş inkişaf imkanları olmasına baxmayaraq, iqtisadi rayonlar üzrə turizmin inkişaf səviyyələri kəskin fərqlənir. Turizm müəssisələri, yerləşmə, istirahət və kurort-rekreasiya mərkəzləri əsasən paytaxtda cəmlənmişdir. Xidmət göstərilən və yerləşdirilən turistlərin, turizm sənayesi müəssisələrində çalışan işçilərin, turizm gəlirlərinin əsas hissəsi Bakı şəhəri və Abşeron turizm rayonunun payına düşür. Geniş imkanlar olmasına baxmayaraq, digər iqtisadi rayonlarda turizm fəaliyyəti lazımi səviyyədə qurulmamış, infrastruktur, turizm rəsmiləşdirilmələri, yerli turizm məhsullarının istehsalı və bazara təklifi sahəsində yeni texnologiyaların tətbiqi müasir səviyyədə deyildir, turizmin statistikası zəif təşkil edilmişdir, bəzən isə qeydiyyat ümumiyyətlə aparılmır və s.

-turizm müəssisələrinin fəaliyyətinin əsas göstəriciləri təhlil edilmiş və müəyyən edilmişdir ki, müəssisələrin gəlirlərində, ölkəyə gələn turistlərin, turizm sahəsində işləyənlərin, yerləşmə, qidalanma, istirahət və əyləncə müəssisələrinin, kurort-rekreasiya komplekslərinin sayında və əksər göstəricilər üzrə inkişaf meyilləri mövcuddur. Lakin daxili və xarici turizm göstəricilərinin müqayisəsi göstərir ki, zəngin potensiala baxmayaraq ölkənin hələ də turizm idxal-ixrac prosesində mənfi göstəriciyə malikdir. Bu isə regionlarda turizmin inkişafının hələlik arzu olunan səviyyədə olmaması, infrastrukturun müasir tələblərə cavab verməməsi və s. problemlərlə bağlıdır.

-tədqiqatin nəticəsi olaraq, regionlar üzrə turizmin inkişaf səviyyəsinin tarazlaşdırılması məqsədilə yeni turizm komplekslərinin yaradılması və inkişafı üçün prosesə təsir edən əsas amillər araşdırılmış və beş qrupa bölünmüşdür. Bu amillər əsas götürülərək yeni turizm komplekslərinin formalaşdırılması, inkişafı və idarə edilməsinin təşkilati-texnoloji sxemi tərtib edilmiş, onun icra olunması ardıcıllığı təsvir edilmişdir. Müəyyən edilmişdir ki, prosesin səmərəli təşkili daxili və xarici amillərin təhlili, qiymətləndirilməsi, inkişafa mənfi təsir edən amillərin aradan qaldırılması, optimal idarəetmə strukturunun yaradılması, fəaliyyətə nəzarətin təşkili, nəticələrin statistikasının aparılması, qiymətləndirilməsi və s. tədbirlərin həyata keçirilməsini tələb edir.

-müəyyən edilmişdir ki, regionlar üzrə turizm ehtiyatlarının inventarlaşdırılması, qiymətləndirilməsi və təsnifləndirilməsi işində pərakəndəlik mövcuddur. Perspektivli turizm növlərinin təşkili üçün təbii ehtiyatların yararlılığını müəyyən edən texnoloji, funksional, istehsal və s. tədbirlər üzrə metod və yanaşmalar tətbiq edilmir. Ona görə ehtiyatların mahiyyətinə, turizmdə istifadə istiqamət və imkanlarına, funksional təyinatına əsasən təsnif edilməsinin yeni forması verilmişdir. Bu təsnifləndirməyə əsasən turizm ehtiyatları təbii, antropogen, təbii-antopogen və turizm sahibkarlığı infrastrukturuna aid ehtiyatlar olmaqla dörd qrupa bölünmüşdür.

-turizm ehtiyatlarının səmərəli istifadəsini təmin etmək üçün onların inventarlaşdırılmasının qruplar üzrə aparılması məqsədəuyğun hesab edilir. Region-

larda turizm ehtiyatlarının tədqiqinin nəticələri təklif olunan təsnifat sisteminə əsasən aparılaraq hansı turizm forma və növündə istifadə istiqamətlərinə uyğun inventarlaşdırılmalı və kataloqlaşdırılmalıdır. Bu üsulla tərtib edilmiş siyahı və kataloqlar regionun turizm ehtiyatları barədə dolğun informasiya alınmasına imkan verir.

-müəyyən edilmişdir ki, yeni turizm mərkəzlərinin formalaşdırılması, inkişafı və turizm ehtiyatlarının daha səmərəli istifadə edilməsi, bilavasitə ehtiyatların ilkin qiymətləndirilməsindən asılıdır. Bu məqsədlə turizm ehtiyatlarının funksional istifadə imkanlarının mahiyyətcə qiymətləndirilməsinin yeni metodu və balların hesablanmasının riyazi düsturu tərtib edilmişdir. Ehtiyatların 20 ballıq şkala ilə 4 dərəcə üzrə (1.tam yararlı-16-20 bal; 2.yararlı-11-15 bal; 3.qismən yararlı-5-10 bal; 4.yarasız-1-5 bal ) qiymətləndirilməsi təklif edilir. Təklif edilən qiymətləndirmə metodunun tətbiqi təcrübi cəhətdən əlverişli olub, turizm ehtiyatlarının real qiymətləndiriməsinə imkan verir.

-formalaşdırılan yeni turizm komplekslərinin əsas məqsədlərindən biri yerli turizm ehtiyatları əsasında yeni turizm məhsulları istehsalının təşkil edilməsidir. Bu məhsullar fərqli xüsusiyyət və keyfiyyət göstəriciləri olan komponentlərlə zənginləşdirilməli, onların fərqli xüsusiyyətlərinin lazımi informasiya bazası yaradılmalı, müxtəlif informasiya kanalları və vasitələri ilə istehlakçı auditoriyasına çatdırılmalıdır. Tərtib edilən reklam-informasiya materialları lakonik, asan başa düşülən, istehlakçıda təəssürat yarada bilən formada tərtib edilməlidir.

-müəyyən edilmişdir ki, regional turizmin inkişafı turist-turizm məhsulu, turist-turizm mərkəzi münasibətlərinin formalaşdırılması üsul və formalarından da asılıdır. Bu münasibətlərin formalaşmasında informasiya-kommunikasiya vasitələrindən istifadəyə xüsusi əhəmiyyət verilməlidir. Turistləri əhatə edən mühitin sosial, siyasi, psixoloji, mədəni, iqtisadi və s. amillərin yaratdığı şərtlərin və motivlərin bu münasibətlərin formalaşmasında rolu nəzərə alınmalıdır.

-regionlarda gəlmə turizm formasının təşkilinə xüsusi diqqət verilməsi əsas prioritet istiqamət olmalıdır. Mövcud turizm potensialının rəngarəngliyi isə regionlarda mədəni, tarixi, istirahət, rekreasiya, ovçuluq, dağ-idman, dini, dərketmə və s. turizm növlərinin təşkili və inkişafına imkan verir. Perspektivli turizm növlərinin regional xüsusiyyətlər nəzərə alınmaqla proqnozlaşdırılması və təşkili, turizm ehtiyatlarının xüsusiyyətləri və funksional istifadə istiqamətlərinə əsasən həyata keçirilməlidir.

-müəyyən edilmişdir ki, yeni turizm məhsulunun istehsalı və formalaşdırılması zamanı onun fərdi, elastik, rəngarəng, zövq oxşayan, turizm tələbatlarının ödənilməsini təmin edən xüsusiyyətlərə malik olması təmin olunmalıdır. Tələbatdan asılı olaraq turizm məhsulunun komponentlərinin modifikasiya olunması, ənənəvi məhsullardan fərqlənmə imkanları yaradır və bu da onun bazarda satış imkanlarını genişləndirir.

-yeni məhsulun bazara təklif edilməsindən sonra onun mənimsənilməsi müəyyən vaxt tələb edir. Bu zaman istehlakçılar məhsulun alınması barədə qərar qəbulu mərhələsində olurlar. Müəyyən edilmişdir ki, yeni məhsulun alınması mərhələləri marağa uyğun informasiya axtarışı, məhsulları müqayisə etmək və qiymətləndirmək, məhsulu almaq barədə qərara gəlmək, məhsulu istehlak etmək və mənimsəmək, istehlakın nəticələrini qiymətləndirmək və təəssürat formalaşdırmaqdan ibarətdir. Yekun qiymətləndirməyə əsasən məhsulun yenidən alınması və təcrübənin bölüşməsi, yaxud məhsuldan imtina barədə qərar verilir. Xidmətlərin keyfiyyətinin yüksək olması təkrar məhsul alınması qərarına müsbət təsir edir.

-yeni turizm mərkəzlərinin istehsalı olan məhsulların bazara təklifi, hərəkət etdirilməsi və satışının təşkili müasir rəqabət şəraitində müəyyən problemlərlə üzləşir. Turizm bazarına təklif olunan məhsulların geniş çeşidi, istənilən turizm məhsulunun həyat dövrünə təsir edir. Məhsulların həyat dövrünün uzunömürlülüyünün təmin olunması məqsədilə sürətli gəlir əldə etmək, zəif gəlir əldə etmək, bazara güclü nüfuz etmək və bazara tədricən nüfuz etmək strategiyalarından istifadə edilir. Azərbaycan milli turizm məhsullarının bazara təklifi zamanı regionlarda mövcud infrastruktur ehtiyatlarının müasir vəziyyətini nəzərə alaraq "bazara sürətlə nüfuz edilməsi" strategiyasına üstünlük verilməsini və müəyyən güzəştli şərtlər təklif edilməsini məqsədəuyğun hesab edirik.

-ölkənin regionlarına turist axınlarının təşviq edilməsi, regionlarda mövcud qeyri-adi ehtiyatların fərqli keyfiyyət göstəriciləri və turizm tələbatlarının ödənilməsində özünəməxsus əlamətlərinin aşkar edilməsindən və bu ehtiyatlar əsasında istehsalı planlaşdırılan yeni turizm məhsullarının fərqli elementlərinin istehlakçılara onların qavraya biləcəyi formada təqdim edilməsindən birbaşa asılıdır. Yeni turizm mərkəzlərinin istehsalı olan məhsulların bazara çıxarılması zamanı bu prinsip təmin edilməli, reklam-informasiya bazası formalaşdırılmalıdır.

-iqtisadi rayonlar üzrə turizmin inkişaf səviyyəsinin tarazlaşdırılması məqsədilə yeni turizm kompleksləri, o cümlədən təbii müalicə vasitələrindən və biomüxtəliflikdən istifadə etməklə qeyri-ənənəvi müalicə üsullarının tətbiqinə əsaslanan kurort-bərpa mərkəzlərinin təşkil edilməsi məqsədəuyğundur. Belə kompleks və kurort-bərpa mərkəzlərinin təşkili üçün Naxçıvan, Gəncə-Qazax, Şəki-Zaqatala, Dağlıq Şirvan, Quba-Xaçmaz və Lənkəran bölgələrində olan mövcud ehtiyatlar geniş imkanlar yaradır.

-regionlarda turizm müəssisələrinin fəaliyyətini gücləndirmək məqsədilə turizm sahəsində sahibkarlıq fəaliyyətinin təşviq edilməsini məqsədəuyğun hesab edirik. Nəzərə almaq lazımdır ki, ölkədə faktiki fəaliyyət göstərən 274 turizm firmasından cəmi 7-si (Gəncə-3, Sumqayıt-3, Şəki-1) regionlarda fəaliyyət göstərir. Problemin həlli üçün regionlarda fəaliyyət göstərən turizm firmalarına güzəştli şərtlərlə xüsusi razılığın (lisenziya) verilməsi, vergi siyasətinin tətbiq

olunması, turizm təşkilatlarında təmsilçilik hüququnun verilməsi, müəssisələrin dövlət tərəfindən sığortalanması və s. tədbirlər həyata keçirilməlidir.

Dissertasiya işinin müddəaları və tədqiqatların nəticələri aşağıdakı çap olunmuş monoqrafiya və elmi əsərlərdə öz əksini tapmışdır:

1.Turizm və Azərbaycanda onun inkişaf perspektivləri // AMEA Gəncə Regional Elm Mərkəzi. Xəbərlər Məcmuəsi, №9. (həmmüəlliflər Xusayinova İ.Y., Qəhrəmanova Y.M.). Gəncə, 2003. s. 44-45.

2.Turizm məhsulunun maya dəyərinin hesablanması. Metodiki vəsait. Az. TU – nun nəşriyyatı. Gəncə, 2003, 32 s.

3.Turizm ehtiyatları və onların əsas xüsusiyyətləri // AMEA Gəncə Regional Elm Mərkəzi. Xəbərlər Məcmuəsi, №.11. Gəncə 2004, s.70-73

4.Turizm mərkəzərinin planlaşdırılması və yerləşdirilməsi prinsipləri // AMEA Gəncə Regional Elm Mərkəzi. Xəbərlər Məcmuəsi, №.16. Gəncə 2004, s.61-63.

5.Перспективы развития паломнического туризма в г. Гянджа. / Tələbə, magistrant və aspirantların məruzələrinin tezisləri. Gəncə, 2004, s. 74-77.

6.Перспективные организационные формы туризма на территории Кедабекского района. / Tələbə, magistrant və aspirantların məruzələrinin tezisləri. (həmmüəlliflər Гасанова Л. В.). Gəncə, 2004, s.111-113.

7.Turizm xidmətlərinin keyfiyyəti anlayışı / Respulika Elmi-praktiki konfransın materialları, Gəncə, 2006, s.76-78.

8.Turizm ehtiyatları və onların qiymətləndirilməsi". Turizm və rekreasiya: problemlər və perspektivlər / Birinci respublika elmi-praktik konfransın materialları, Bakı, 2007, s.32-36.

9.Servis fəaliyyətinin mahiyyəti / Respulika Elmi-praktiki konfransın materialları. Gəncə 2008, s.147-150.

10.Экотуристский потенциал западного региона / Turizm və rekreasiya: problemlər və perspektivlər. İkinci respublika elmi-praktik konfransın materialları. Bakı, 2008, s.124-129.

11.Формы гостиничного хозяйства и классификация средств размещения // Финансы Казахстана. № 5-6, Астана, 2008, с.14-22.

12.Методологические основы формирования региональных туристских центров / Regionların sosial-iqtisadi inkişafının nəzəri və praktik məsələləri. Konfrans materialları. GDU, Gəncə, 2008, s.45-49.

13.Развитие туристической отрасли: основные этапы и направления // Финансы Казахстана. №1-2, Астана, 2009, с.61-71.

14.Роль информационной инфраструктуры в развитии предпринимательства в туризме / Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri. Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2009, s. 383-391.

15.Turizm ehtiyatlarının qiymətləndirilməsi metodlarının təkmilləşdi-rilməsi / Respublika elmi-praktik konfransın materialları, Gəncə 2009, s. 178-181.

16.Ekoloji turizmin təşkilinin nəzəri məsələləri / Respulika Elmi-praktiki konfransın materialları, Gəncə, 2009, s. 181-183.

17.Факторы, обусловливающие развитие туристских цетров в западном регионе Азербайджана / Международная научно-практическая конференция. Болгария, Варна, 2009, с.47-56.

18.Перспективы развития экотурзма в западном регионе Азербайджана // Экономика и производства, №2, Москва, 2009,5 с.

19.Стратегия продления жизненного цикла туристского продукта в условиях Азербайджана / Международная научно-практическая конференция. Болгария, Варна, 2010, с. 446-454.

20.Azərbaycan turizm müəssisələrində informasiya texnologiyalarından istifadənin vəziyyəti / Respulika Elmi-praktiki konfransın materialları, Gəncə, 2010, s. 94-97.

21.Regional turizmin inkişaf etdirilməsində dövlət siyasəti / Respulika Elmi-praktiki konfransın materialları, Gəncə, 2010, s. 97-99.

22.Концепция формирования и развития туристских дестинаций в западном регионе Азербайджана. // Sumqayıt dövlət universiteti. Elmi xəbərlər, cild 10, №1, Sumqayıt, 2010, s. 88-93.

23.Экономическая оценка природных ресурсов с целью формирования и развития региональных туристских центров / Материалы международной научной конференции, Тбилиси, 2011, 353-358.

24.Туристкие ресурсы Азербайджана богатый источник для многогранного развития туризма / Юбилейна научна конференция с международно участие. Предизвикателства пред туризма през XXI век, I том, София, 2011, с. 37-43.

25.Природные туристские ресурсы Азербайджана // Сервис plus. № 3, Москва, 2012, с. 11-16.

26.Государственное регулирование развития туризма в Азербайджане // Общество. Среда. Развитие. Научно-теоретический журнал, № 2, Санкт Петербург, 2012, с. 14-19.

27.Возможности организации и развития туристских центров в западном регионе Азербайджана // Журнал научных публикаций аспирантов и докторантов, № 3, Курск, 2012, с. 5-10.

28.Azərbaycanda regional turizmin inkişafı: problemlər, perspektivlər // Monoqrafiya. Bakı, "Avropa", 2012, 368 s.

29.Социально-экономическое значение и роль развития туризма в Азербайджане // Региональная экономика: теория и практика. №13(292), Москва,2013, с. 62-66.

30.История развития туризма в Азербайджане до начало 1990-х годов //Сервис plus. № 3, Москва, 2013, с. 3-10.

31.Перспективы развития туристских кластеров в Гянджа - Газахском экономическом районе Азербайджана // Вестник Национальной Академии Туризма, № 4, Москва, 2013, с. 55-58.

32.Bases of entrepreneurship activity in modern tourism // ADIU Elmi Xəbərləri. Cild1.,Bakı, 2013, s.91-105.

33.Перспективы развития туристской индустрии в регионах Азербайджана в современных экономических условиях // Экономика и предпринимательство, №1, Москва, 2013, с.78-82.

34.Принципы эффективного использования туристского потенциала в Азербайджане // Экономика и предпринимательство. № 2. Москва, 2013, с. 49-53.

35.Методика планирования туристских дестинаций в западном регионе Азербайджана. Texnoloji innovasiyalar və elmi-texniki tərəqqi. / Respublika elmi-praktik konfrans materialları.Gəncə, 2013, s. 226-231.

36.Naftalan nefti turizm ehtiyatı kimi. Texnoloji innovasiyalar və elmi-texniki tərəqqi. / Respublika elmi-praktik konfrans materialları. (həmmüəlliflər M.M.Tağıyev, N.S.İdrisova.). Gəncə, 2013, s. 242-243.

37.Туризм в Азербайджане-важнейшая отрасль развития региональной экономики // Экономика и предпринимательство. №10, Москва, 2013, с. 83-89.

38.Социально-экономическое значение и роль развития туризма в Азербайджане // Региональная экономика: теория и практика, №13, Москва, 2013, с. 62-66.

39.Туризм в Азербайджане: современное состояние и перспективы / Международная научно-практическая конференция «Инновация. Менеджмент. Маркетинг. Туризм.», Сочи, 2013, с. 83-89.

40.Развитие туризма в регионах Азербайджана и его влияние на социально-экономическое развитие страны // Глобальный научный потенциал, № 3(36), Москва, 2014, с. 92-96.

41.Анализ состояния предпринимательской деятельности в сфере гостиничного хозяйства в Азербайджане / Сборник материалов международного научного е-симпозиума, Москва, 2014, с. 12-26

42.Роль национального туризма в интеграции Азербайджана в мировое экономическое сообщество /XVIII международная научно-практическая конференция для студентов, аспирантов и молодых ученых. Санкт-Петербург, 2014, с. 76-79

43.The current situation of tourism in Azerbaijan and its development problems in the regions / Science, Technology and Higher Education.Materials of

the VI international research and practice conference.Strategic Studies Institute. Canada, Westwood, 2014, p.115-125

44.Gəncə şəhərində dini abidələrin tədqiqi və onların turizm məqsədilə istifadə perspektivləri. / /Kreativ sənaye texnologiyalarının tədrisi və tətbiqi. Beynəlxalq elmi-praktiki konfransın materialları. Gəncə, 2015, s 321-323.

45.Müasir turizmdə servis xidməti fəaliyyətinin mahiyyəti və əsas istiqamətləri. Kreativ sənaye texnologiyalarının tədrisi və tətbiqi. Beynəlxalq Gəncə, 2015, s.327-329.

46.Turizmdə sahibkarlıq fəaliyyətinin rolu. / Davamlı inkişafın milli modeli və strategiyası. Respublika elmi konfransının materialları. Mingəçevir, 2015, s. 197-199.



# РЕЗЮМЕ

## Гасанов Арзу Наджаф оглы

## Формирование стратегии развития региональных туристских комплексов

Диссертационная работа состоит из введения, пяти глав, заключения, списка использованной литературы и приложений.

Во введении обосновывается актуальность и практическая значимость выбранной темы, излагается уровень изученности исследуемой темы, формируется цель и задачи, теоретические и методологические основы, выбирается объект и методы исследования перечисляется научная новизна и даются основные рекомендации. As an important part of the social sphere

В первой главе даются специфические особенности и концептуальные основы исследования в туризме, излагаются сущность, цели, задачи и функции современного туризма, особенности и социально-экономические основы его развития, как важная составная часть социальной сферы, анализируется история, основные направления и традиции развития гостеприимства и туризма в Азербайджане.

Во второй главе рассматриваются основные тенденции развития в международном туризме и направления туристских потоков, перечисляются местные и природно-климатические, экономические, экологические, политические, антропогенные и д. факторы, обусловливающие формирование и устойчивое развитие национальной туристской индустрии, рассматриваются теоретические и методологические основы организации и развития туристско-рекреационной отрасли, обосновывается методика туристско-рекреационное районирование территорий,

Втретей главе изучается и оценивается туристско-рекреационный потенциал в экономических районах страны, анализируются особенности региональных туристских ресурсов и определяются возможности и даются рекомендации по их использовании в производстве туристских продуктов при создании новых региональных туристских комплексов.

В четвертой главе анализированы основные показатели туризма и предприятий туристской индустрии, проблемы развития туризма в регионах страны на основе статистических данных. Обоснована специфичность проблем развития туризма в зависимости от региональных особенностей, выявлено неравномерное развитие туризма по регионам и предложены конкретные пути решения этих проблем. Рассмотрены особенности предпринимательской деятельности и создания инфраструктуры предпринимательства, принципы эффективного хозяйства, как важный компонент в

формировании туристских продуктов и анализировано состояние предпринимательской деятельности в этой сфере.

В пятой главе исследованы теоретические основы формирование стратегии развития и управления региональных туристских центров, определены основные факторы, влияющие на развитие регионального туризма, которые по уровню воздействия классифицированы в пяти группах. Предложена новая форма классификации туристских ресурсов по происхождению, функциональным особенностям, степени возможности, методу и направлениям использования в целях туризма и рекреации, новый метод оценки туристских ресурсов, разработаны организационно-технологические этапы стратегического развития туристских центров, выявлена взаимоотношение турист-туристский продукт, механизм влияния факторов на принятие решения покупать турпродукта. Определена стратегия по продлению жизненного цикла, роста объема продаж и продвижению новых туристских продуктов в туристском рынке.

## SUMMARY

### Hasanov Arzu Najaf oglu

### Formation of the strategy of development of regional tourism complexes

The thesis consists of an introduction, five chapters, conclusion, bibliography and applications.

In the introduction, the relevance and practical importance of the chosen theme has been grounded, the level of the theme under study has been expounded, goals and tasks as well as theoretical and methodical bases have been formed, the object and methods of research have been chosen, the scientific novelty has been enumerated and the basic recommendations have been given.

The first chapter gives specific peculiarities conseptual bases of the research in tourism, expounds the essence, goals, tasks and functions of modern tourism, peculiarities and social-economical bases of its development, as an important component of the social sphere, the history, main directions and traditions of hospitability and tourism in Azerbaijan have been analyzed.

The second chapter the main tendency in the development of international tourism and directions of tourist flows are considered; local climatic, economical, environmental, political and other factors that determine formation and stable development of tourism industry have been enumerated, theoretical and methodological bases of arranging and development of tourist-recreational sector are considered; methodology of tourism-recreational zoning of territories has been grounded in this chapter.

The third chapter studies and evaluates tourist and recreational potential in the economic regions of the country, analyzes peculiarities of regional tourist resources and determines possibilities and gives recommendations on their use in the production of tourist products during creating new regional tourist complexes.

In the fourth chapter the main indicators of tourism and enterprises of tourism industry, problems of tourism development in the regions of the country have been analysed. The specificity of the problems of tourism development depending on regional characteristics has been substantiated; uneven development of tourism in regions has been revealed and concrete solutions of these problems have been proposed, as well as features of entrepreneurial activity and creation of entrepreneurial infrastructure have been analysed.

In the fifth chapter the theoretical basis of strategy development and management of regional tourist centres have been studied; the basis factors influencing the development of regional tourism have been classified in five groups according to the level of impact. A new form of classification of tourism resources according to their origin, functional features and degree of possibility,

method and the direction of use has been suggested. A new method for estimating the tourist resources and organizational and technological stages of strategic development of tourist centres has been worked out; relationship tourist-tourism product has been revealed. A strategy on prolonging the life cycle, sales volume growth and promotion of new tourism products in the tourist market has been defined.



Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 36, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

---------------------------------------------------------------------------

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
АГРАРНЫЙ УНИВЕРСИТЕТ

==========================================

*На правах рукописи*

**Гасанов Арзу Наджаф оглы**

# ФОРМИРОВАНИЕ СТРАТЕГИИ РАЗВИТИЯ РЕГИОНАЛЬНЫХ ТУРИСТСКИХ КОМПЛЕКСОВ

**5304.01-«Виды экономической деятельности»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора экономических наук

**Гянджа - 2016**